*Uşaq ədəbiyyatı xəzinəsindən*



# İlyas Tapdıq

*Bibliografiya*

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası

*Uşaq ədəbiyyatı xəzinəsindən*

# İlyas Tapdıq

## Biblioqrafiya

Bakı-2015

**KBT** Я19:Ш9(2=Аз) 7я1
**ÜOT** 016:821.512.162

| | |
|---|---|
| **Tərtibçilər:** | **Nazilə Tahirova**<br>**Lelya Qafarova** |
| **İxtisas redaktoru və buraxılışa məsul:** | **Şəhla Qəmbərova** |
| **Ön sözün müəllifi:** | **Zahid Xəlil,**<br>*filologiya elmləri doktoru, professor* |
| **Redaktor:** | **Gülbəniz Səfərəliyeva,**<br>*Əməkdar mədəniyyət işçisi* |

İlyas Tapdıq: biblioqrafiya /tərt. N.Tahirova, L.Qafarova; ixt. red. və burax. məsul Ş.Qəmbərova; red. G.Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 248 s.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair İlyas Tapdığın həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada görkəmli şairin 60 il ərzində qələmə aldığı bütün əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 504 08 8

**© F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**



## Tərtibçidən

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, görkəmli şair və tərcüməçi İlyas Tapdıq müasir uşaq ədəbiyyatında özünəməxsus dəsti-xətti olan uşaq şairlərindəndir. Bu sahədə xeyli uğurlu əsərlərin müəllifi kimi tanınan İlyas Tapdıq uşaq ədəbiyyatımızın inkişafında və zənginləşməsində xüsusi və şərəfli bir yol keçmişdir.

İlyas Tapdığın anadan olmasının 80 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən yazıçının biblioqrafik göstəricisi tərtib olunmuşdur.

Şairin həyat və fəaliyyətini əks etdirən "İlyas Tapdıq" adlı bu biblioqrafiya görkəmli şəxsiyyətin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edir. Biblioqrafiya iki hissədən ibarətdir. I hissədə İlyas Tapdığın əsərləri, II hissədə isə onun haqqında materiallar öz əksini tapmışdır.

Vəsaitdə şairin həyat və fəaliyyətinin əsas tarixləri, "İlyas Tapdığın şeirlərindən deyimlər", "Görkəmli şəxsiyyətlər İlyas Tapdıq haqqında" bölmələri də verilmişdir.

Biblioqrafiyada Azərbaycan və rus dillərində materiallar xronoloji qaydada qruplaşdırılmış, bölmə və yarımbölmələr daxildə isə materiallar əlifba prinsipi ilə qruplaşdırılmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda İlyas Tapdığın əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88
**E-mail:** childlibbaku@yahoo.com

## İlyas Tapdıq poeziyasının ruhu

Görkəmli şair, mədəniyyət xadimi İlyas Tapdığın yaradıcılığına həsr olunan bu biblioqrafiya Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının yaradıcı ziyalılara diqqət və qayğısının yeni ifadəsi kimi təqdirəlayiqdir. Bu biblioqrafiyaya ön söz yazarkən xeyli düşündüm: Axı İlyas Tapdıq təkcə uşaqlar üçün yazmayıb. Məgər "Gözlər", "Əksim və qəlbim", "Arxalı dağlar", "Bir ömrün şimşəyi", "Məhəbbət yolları" və s. kimi şeir kitabları lirik poeziyamızın layiqli nümunələrindən deyilmi? İlyas Tapdığın təkcə "Bənövşə xatirinə kol dibinə iz düşür" misrası onun lirik şair olduğuna sübut deyilmi?

*Üzərində ağ buludlar yarılar,*
*Yel vuranda gülün-gülə sarılar,*
*Çiçəyinə nəğmə deyər arılar*
*Şirə çəkir çəmənlərin tər çağı,*
*Sinən üstə səpələnir Ər dağı!*

Əgər İlyas Tapdıq yalnız bu tipli lirik şeirlər yazsaydı, yenə də ədəbiyyatımızın tarixində qala bilərdi. Lakin bu gün İlyas Tapdıq haqqında düşünəndə, uşaq ədəbiyyatımızın görkəmli bir nümayəndəsinin siması qeyri-ixtiyari olaraq göz önündə canlanır.

İlyas Tapdığın bioqrafiyası çox sadədir: 1934-cü ilin bir payız səhərində - noyabrın 30-da, Gədəbəyin Əli İsmayıllı kəndində, Oruc kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi. Uşağın adını İlyas qoydular. Soyadları Tapdıqov olan bu ailənin üzvlərindən kimsə dedi:

- Tapdıq! İlyası tapdıq.

Bəlkə də elə o vaxtdan, hələ yazı-pozu bilməyən uşağın İlyas Tapdıq adı dildən dilə düşdü. Balaca İlyas qohum-əqrəbanın ona verdiyi adı doğrultmaq üçün gecə-gündüz oxudu, saza, aşıq sənətinə xüsusi rəğbət bəslədi. Özü də ara-sıra qoşma janrında şeirlər





yazmağa başladı. Hələ Gədəbəyin Qara Murad kəndində orta məktəbdə oxuyarkən yazdığı şeirləri mərkəzi mətbuata yol tapmağa başladı. 19 yaşlı İlyasın "Bakının gecələri" adlı şeiri respublikanın ən böyük ədəbi mətbuatlarından biri olan "Azərbaycan" jurnalında çap olundu. İlk uğur onu həyəcanlandırdı, amma çaşdırmadı. Bunun ardınca "Kəndimizin çobanı" adlı şeirlər kitabı 1955-ci ildə nəşr olundu. Bu kitab sanki İlyas Tapdığı relsin üzərinə çıxartdı. 1957-ci ildə onu Uşaqgəncnəşr adlanan böyük bir nəşriyyata redaktor vəzifəsinə qoydular. 1958-ci ildə Yazıçılar Birliyinin üzvlüyünə qəbul olundu. İlyas Tapdıq qatarı bütün gücü ilə hərəkətə gəldi.

İlyas Tapdıq bütün ömrünü nəşriyyatda keçirdi. 1957-ci ildən 1990-cı illərə qədər uşaqlar üçün kitab çap edən nəşriyyatlarda çalışdı. Kitab nəşri bu gün də onun həyatının mənasını təşkil edir. Onun indiyə qədər redaktə etdiyi kitabların sayı 900-ə yaxındır. Bu günün tanınmış yazıçılarının əksəriyyətinin kitablarına redaktorluq edib. Bu gün müstəqil nəşriyyatlar da onun təcrübəsindən maksimum yararlanmaq istəyir. Belə bir fəaliyyətlə məşğul olan bir adamın nəticədə gözəl uşaq şairi olması son dərəcə təbiidir.

Görkəmli rus yazıçısı M.Prilejayeva "Detskaya literatura" jurnalında "Salam, İlyas Tapdıq" adlı məqaləsində qeyd edir ki, Azərbaycan uşaqları ona görə xöşbəxtdir ki, onların İlyas Tapdıq kimi gözəl şairləri var.

Bu gözəllik nədədir? İlyas Tapdıq hər şeydən əvvəl güclü müşahidə qabiliyyətinə malik olan bir sənətkardır. Hamının gördüyü bir lövhəni İlyas Tapdıq heç kəsin görə bilməyəcəyi bir mənzərəyə çevirməyi bacarır.

*Nənənin evində gəbə var,*
*Gəbənin üstündə dəvə var,*
*Dəvənin belində təpə var,*
*Təpənin üstündə nəvə var...*

Təkcə bu bənd bitkin bir şey ola bilərdi. Lakin şair hər misranın məntiqi davamını kəşf edir. "Nənənin evində gəbə var, Gəbənin üstündə dəvə var" bu misraların məntiqi davamı kimi şeirdə oxuyuruq: "Dəvənin yunundan toxunan gəbələr". Yalnız bu misradan sonra uşağa aydın olur ki, dəvələri əzizləyib, şəklini gəbənin üstündə niyə çəkiblər. Çünki dəvənin yunu olmasaydı gəbələr də toxunmazdı. Dəvələrin belindəki təpələr, həmin təpələrin üstündə oynayan nəvələrin xoşbəxtliyinin də səbəbi həmin dəvələr və gəbələri toxuyan nənələrdir.

Forma ilə məzmunun vəhdəti İlyas Tapdığın uşaq şeirlərinin ən mühüm keyfiyyətlərindən biridir. Təbiət təsvirlərinə həsr olunan şeirlərində artıq bir sözə, əlavə bir detala rast gəlmək mümkün deyil. Şair uşaq şeirlərimizin elə mükəmməl nümunələrini yaradıb ki, hələ çox illər onu məhəbbətlə oxuyacaq, cavan qələm sahibləri – yaradıcı şəxslər İlyas Tapdıqdan sənət üçün vacib olan çox dəyərləri əxz edəcəklər.

*Lerikdə*
*meşəli yamac var,*
*Yamacda*
*Nə qədər ağac var,*
*Budağı*
*Qaynayıb, qarışıb.*

Lerik meşələrinin vəhşi, nizamsız, lakin bu ibtidailikdə bir gözəllik olduğunu bundan yaxşı təsvir etmək mümkün deyil. Lakin müəllifin fikri heç də təkcə insan ayağı dəyməyən bu meşələrin təsvirini vermək deyil. Budaqları bir-biri ilə qurşaq tutan bu meşədəki ölüm-dirim mübarizəsində yaşamaq və qalib gəlmək üçün ağaclar öz gövdələrini bərkitmək məcburiyyəti qarşısındadırlar. Dəmir ağacların də məhz Lerik meşələrində bitməsinin səbəbi bəlkə də elə budur. Şair bu ağacın bərkliyini, "dəmir"liyini göstərmək üçün yazır.





*Kökünü*
*Torpaqda*
*Köstəbək gəmirdi.*
*Dişləri batmadı*
*Dedi ki,*
*- Bu ağac*
*Deyəsən,*
*Dəmirdi.*

"Dəmir ağacı"nı bu cür yığcam və son dərəcə ciddi ifadələrlə təsvir edən şair "Püstə ağacı" şeirində ahəngi dəyişir. Püstənin özü kimi yumşaq ifadələrə keçir.

*A püstə*
*Püstə,*
*Püstə,*
*Təpə üstə, dağ üstə,*
*Kökləri yarğan üstə,*
*Quruyar çardaq üstə*
*Yarpağı yarpaq üstə...*
*İstidir. Ay Süsənbər,*
*Bircə vedrə su əndər,*
*Bir ovuc püstə istə.*

İlyas Tapdıq uşaq ədəbiyyatının sirlərinə bələd olduğu kimi uşaqların psixologiyasını da əla bilir. Lakin müəllif bu biliklərinə arxayın olub, qurama süjetlər, qeyri-inandırıcı əhvalatlar təsvir etmir. Uşaqları müşahidə edib, onların gündəlik həyatından götürülmüş əhvalatları qələmə almaq İlyas Tapdıq üçün çox xarakterik iş üslubudur. Bu, şübhəsiz mühüm keyfiyyətdir. Şair İlyas Tapdıq belə əsərlərində uşaqların başına gələn məzəli əhvalatlardan daha çox istifadə edir.

*Bir əmi*
*götürüb qayçını*

*Gültəmin*
*Qısaldıb saçını.*
*Başına*
*aparıb əlini*
*Qız,*
*gəzir, axtarır telini,*
*Yerinə*
*bitirin saçımı!*

Şair bəzən ən adi bir əhvalatdan məzmunlu əsər yaratmağa nail olur.

*Buynuzları burma-burma*
*Vurağan qoç, məni vurma!*
*Qoç uşağa baxıb durdu,*
*Buynuzunu daşa vurdu.*
*Dedi: - Onda, dəcəl oğlan,*
*Qabağımda gəlib durma.*

Cəmi altı misrada yerləşdirilən bu əhvalat nəsrlə yazılsaydı, bəlkə də bir səhifədən çox olardı. Şair burada uşağın dəcəlliyini, qoçu cırnatmaq istədiyini təsvir etmir. Onu qoçun dediyi bir misradan başa düşürük. Deməli, yığcamlıq Azərbaycan uşaq ədəbiyyatının ən başlıca meyarıdır.

İlyas Tapdıq xalq ədəbiyyatından yaradıcılıqla bəhrələnən bir söz ustasıdır. Xalqın yanıltmaclarının uşaq üçün nə qədər sevimli olduğunu hamı bilir. Çünki bu janr səslərin, sözlərin yaratdığı alliterasiyaya əsaslanır və belə əsərlər oyun xarakterli olduğuna görə balacaların çox xoşuna gəlir. İlyas Tapdığın yaratdığı bir silsilə şeir, xalqın həmin ənənələrinə əsaslanan gözəl nümunələridir.

*Keçidi*
*Keçdi*
*Keçim.*
*Gərək indi mən*
*Keçim*
*Keçib*





*Keçini*
*Keçim.*

Ümumiyyətlə, xalqdan yaradıcı bəhrələnən İlyas Tapdığın alliterasiyaya əsaslanan "Bildirçin" şeiri uşaq poeziyamızın nadir nümunələrindəndir. Bu şeirdə "bildirçin", "bildir", "bildir-bildir", "çildir" və s. kimi sözlər bir süjet ətrafında məharətlə birləşdirilib. Şeiri oxuyan hər bir uşaq ona yenidən qayıtmaq istəyir.

*Bildir uçub bağçanı*
*Meşə bildi bildirçin.*
*Arzu çıxıb çığırdı*
*"Çildir, çildir" bildirçin*
dedi:
*Hanı quyruğun?*
*Mənə bildir, bildirçin.*
*Bəlkə pişik qoparıb*
*Neçə ildir, bildirçin.*

İlyas Tapdığın uşaq əsərləri M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, R.Əfəndiyevlə başlayan uşaq poeziyamızın davamı kimi çox ibrətlidir. Dilinin saflığı və təmizliyi süjetlərin təbiiliyi, tərənnüm etdiyi ideyaların əhəmiyyətliliyi etibarı ilə bu əsərlər İlyas Tapdığı qələm yoldaşlarından tamamilə fərqləndirir.

Bu gün oxucuların ixtiyarına verilən İlyas Tapdığın biblioqrafiya kitabı çox gərgin bir zəhmətin nəticəsi kimi görünür. Müəlliflər şairin həyatının əsas tarixlərini, qələm dostlarının İlyas Tapdıq sənətinə verdikləri qiymətli fikirləri kitabın əvvəlində yerləşdirməklə yazıçı haqqında bütöv təsəvvür yaratmağa çalışmışlar. İlyas Tapdığın sənətinə yüksək qiymət verənlər arasında Səməd Vurğun, Mir Cəlal, Süleyman Rüstəm, Məmməd Rahim, Osman Sarıvəlli, Elçin, Məmməd Araz, Hüseyn Arif kimi Azərbaycan şairləri və yazıçıları ilə yanaşı, Sergey Mixalkov, Valentin Berestov, Mariya Prilejayeva kimi dünya şöhrətli rus yazıçılarının da adı var.

Oxucuların və tədqiqatçıların işini yüngülləşdirmək məqsədilə biblioqrafiyada İlyas Tapdığın əsərləri nəşr olunduqları tarixi ardıcıllıqla düzülmüş, kitablara daxil olan əsərlərin tam siyahısı verilmişdir.

Biblioqrafiyanın müsbət cəhətlərindən biri də tarixi ardıcıllıq prinsipinə əməl olunmasıdır. Müəlliflər burada "Kitablarda, məcmuələrdə, dövri mətbuatda dərc edilmiş əsərləri", "Dövri mətbuatda dərc edilmiş məqalələri", "Sözlərinə musiqi bəstələmiş bəstəkarlar", "Redaktoru olduğu kitablar" bölmələri vermişlər ki, bu da şairin nəşr olunmuş əsərləri və redaktə etdiyi kitablar barədə bütöv təsəvvür yaradır.

İlyas Tapdığın əsərlərini tədqiq edən tədqiqatçılar bu kitabdan yararlana biləcəklər. Müəllif haqqında biblioqrafiyada "Kitablarda", "Elektron resurslarda", "Filmoqrafiya" bölmələri verilmişdir. Şairin digər dillərdə çap olunan əsərləri də tarixi-xronoloji ardıcıllıqla verilmişdir. Kitab oxucular, tədqiqatçılar və tələbələr üçün dəyərli bir vəsait olacaqdır.

**Zahid XƏLİL,**
*filologiya elmləri doktoru,*
*professor*





## İlyas Tapdığın həyat və fəaliyyətinin əsas tarixləri

**1934** - Tapdıqov İlyas Oruc oğlu noyabr ayının 30-da Gədəbəy rayonunun Əli İsmayıllı kəndində anadan olmuşdur.

**1952-1956** - Gədəbəyin kiçik Qaramurad kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır.

**1953** - Azərbaycan jurnalında dərc edilən "Bakının gecələri" adlı şeirlə ədəbi yaradıcılığa başlamışdır.

**1955** - Şairin ilk kitabı "Kəndimizin çobanı" çap olunmuşdur.

**1957-1962** - Uşaqgəncnəşrdə redaktor vəzifəsində çalışmışdır.

**1958** - SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

**1962-1968** - Azərnəşrdə redaktor, böyük redaktor vəzifələrində işləmişdir.

**1968-1976** - "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri və baş redaktor olmuşdur.

**1976-1978** - Azərbaycan Baş Mətbuat Müvəkkilliyində qrup rəhbəri vəzifəsində çalışmışdır.

**1978-1983** - Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində televiziya gənclər baş redaksiyasının baş redaktoru vəzifəsində işləmişdir.

**1972** - Sovet uşaq ədəbiyyatı və incəsənəti nümayəndə heyətinin tərkibində Çexoslovakiyada olmuşdur;
- "Aşıq Ələsgər" sənədli filminin ssenarisini yazmışdır.

**1973** - "Meşənin mahnısı" şeirlər kitabına görə Respublika Lenin komsomolu mükafatı laureatı olmuşdur.

**1977** - "Çimnaz oynayır" kitabı Moskvada rus dilində çap olunmuşdur.

**1979** - Sovet uşaq ədəbiyyatı və incəsənəti nümayəndə heyətinin tərkibində Macarıstanda olmuşdur.

**1980** - Azərbaycan komsomolunun XXX-XXXI qurultaylarına nümayəndə seçilmişdir.

**1984** - "Özümlə görüş" şeirlər kitabı "Yazıçı" nəşriyyatında çap olunmuşdur.

**1985** - Kiçikyaşlı məktəblilər üçün "Nağıllı ağaclar" şeirlər, yanıltmaclar və mənzum nağıllar kitabı "Gənclik" nəşriyyatında çap olunmuşdur.

**1987** - Kiçikyaşlı məktəblilər üçün "Şıltaq günəş" şeirlər, yanıltmaclar, poemalar kitabı "Gənclik" nəşriyyatında çap edilmişdir.

**1989** - "Gənclik" nəşriyyatı redaksiya şurasının üzvü, Azərbaycan komsomolu Şöhrət şurasının





üzvü və bir sıra respublika festival və müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur.

**1989** - Azərnəşr bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışır.

**1990** - "Məhəbbət yolları" şeirlər kitabı "Yazıçı" nəşriyyatında çap edilmişdir.

**1992-1995** - Türkiyənin Ankara şəhərində işləmişdir.

**1992-1995** - Ankara şəhərində Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajansında müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri olmuşdur.
- Ankarada "Azerbaycan" dərgisinin redaksiyasında çalışmışdır.

**1994** - Anadan olmasının 60 illiyi Ankarada İLESAM tərəfindən təntənəli şəkildə qeyd edilmişdir.

**1994** - Türkiyənin İzmir şəhərində I Uluslararası Türk dünyası Turizm və Kültür Simpoziumunda iştirak etmişdir.

**2003** - Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2003-cü il tarixli Fərmanı ilə Prezident təqaüdünə layiq görülmüşdür.

**2005** - "Şeir sevən balalar" şeirlər və poemalar kitabı "Turan Nəşrlər evi"ndə çapdan çıxmışdır.

**2009** - "Seçilmiş əsərləri"nin birinci cildi "Şur" nəşriyyatında çap edilmişdir.

**2010** - "Seçilmiş əsərləri"nin ikinci cildi "Şur" nəşriyyatında çap edilmişdir.

## İlyas Tapdıq şeirlərindən deyimlər

İlyasam, el üçün qaynayır qanım,
Elsiz kimə gərək şeirim, dastanım,
Bu barlı-bəhrəli Azərbaycanın
Bir kiçik parçası Gədəbəydədir!

****

Çəkdiyi dağları sinədən silməz,
Bəla çaylarına körpü çəkilməz...
Sirri içindədir – fələk də bilməz,
Açmayıb nə qədər falı bu dünya!

****

Ömür qopar bir gün tağdan –
Qədrini bilmək yaxşıdır.
Qorxa-qorxa yaşamaqdan,
Mərdliklə ölmək yaxşıdır.

****

Sökən olma, qardaş, sökən,
Baltalama dirəyini, pərdəni;
Təzə yurdda çəkmə
Köhnə yurdun dərdini!

****

Səhnədə şöhrət də, faciə də var,
Böyük bir həyatdır səhnə aləmi.





****

Ac nəfsin ömrünə qənim kəsilən
Tamahkardan ibrət götürməyəcəm!

****

Şeirimin canıdır bu el, bu Vətən,
Boş sözü bu elə ötürməyəcəm!

****

Adlar batır, yeni adlar törəyir,
Ocaq sönür, yurdda otlar göyərir.
Doğmalardan qorxunc yadlar törəyir,
Qoyma  arta, vədəsində bil dərdi.

****

Yolunda kim daş qırar
Yola çəkər bulağı –
Suyu şirin deyilsə?!

****

Dayanıb daş olduq əli qoynunda:
Quruyan ağacın sahibi kimdir?
Çinar torpağında, palıd yurdunda
Ağacı quruyan yollar yetimdir!

****

Bu yalan dünyaya doğru gəlməyim
Bəlkə bu dünyaya yamanlığımdı.
Əlimdən yapışan yaxın həmdəmim,
Nakam uşaqlığım, cavanlığımdı.

****

Hara çəkir bu dünyanı yedəklər?
Bilən varmı, dərdi nədir, səri nə?!
Öz oduna özü yanan ürəklər
Sərniyərmi çəkilməklə sərinə?!

****

İnsan kaş ki, dünyanı
Nəğmələrlə yatıra,
Nəğmələrlə oyada!

****

Unutmayın eldə ana-bacı var,
Çiçəklərin xırman-xırman tacı var.
Gorbagora qahmar çıxan payçı var,
Ay-ulduzlu pak nişanı qoruyun!

****

Üçrəngli bayrağımız,
Paytaxtımız, gerbimiz,
Himnimiz, dinimiz var.
Dünya həsəd aparan
Sərvətimiz, varımız,
Şəhid qanı çilənən
Torpağımız, ağrımız,
Taleyi daşdan keçən
Soyumuz-elimiz var.

****

Gecə-gündüz öz xeyrini güdənin
Bu millətdən danışmağa haqqı yox!
Tamahının yedəyində gedənin
Səxavətdən danışmağa haqqı yox!

****

Ac olsan da aclığını bildirmə,
Nəfsin üçün vüqarını öldürmə,
Sınaq olar – dostu-yadı güldürmə,
Danışılar şenliyini unutma.





****

Heç fikir eləmə -
artmadın asan,
Çoxları həyatda yerini tutmur.
Çalış əməlindən sıxılmayasan,
Xəcalət tərini günəş qurutmur.

****

Mən İlyasam, bir həmdəmim yar idi,
Xəyalıma yerlər, göylər dar idi.
Cavan idim, bir ürəyim var idi,
Ata oldum, üç paradır ürəyim.

## Görkəmli şəxsiyyətlər İlyas Tapdıq haqqında

İlyas Tapdığın əsərlərini oxuyanda adam özünün maraqlı və cazibəli bir müsahib ilə üz-üzə gəldiyini duyur və yenicə tanış olduğu bu həssas müsahibi axıracan dinləməyə çalışır.

**Mir Cəlal,**
*Görkəmli yazıçı,*
*Əməkdar elm xadimi*

İlyas Tapdığın yaradıcılıq məziyyətlərindən biri dilinin sadəliyi, təbiiliyi və səmimiliyidir. İlyas həyat eşqinin həvəsini adi sözlərlə deyil, təsvir vasitəsilə verərək bədii lövhələr yaradır.

**Məmməd Rahim,**
*Xalq şairi*

Çoxdur dağlarında qızıl, dəmir, mis,
Gədəbəy dünyaya tanışdır artıq.
Gəzdik dağlarını qarış-qarış biz,
Qızıldan qiymətli İlyas Tapdıq!

**Osman Sarıvəlli**,
*Xalq şairi*

İlyas Tapdıq dedikdə ehtiraslı, vətənpərvər, proletar, beynəlmiləlçilik ruhuyla dolğun şeirlərin istedadlı şairini tanıyıram. İlyas Tapdıq təzə söz deməyə, öz oxucularını düşündürməyə səy edən istedadlı şairdir. İlyas Tapdıq çox gözəl bilir ki, tələbkar oxuculara, bədii cəhətdən kamil, rəngarəng boyalarla müəyyən zəmanəmizin nəbziylə vuran, ürəklərə yol tapan şeirlər gərəkdir. İlyas Tapdıq axtarışdadır. İlyas Tapdıq gənclik şairidir.

**Süleyman Rüstəm,**
*Xalq şairi*





Sakitlik, həlimlik İlyas şeirinə xas olan cəhətdir. Onun şeirində qanadlı, ibarəli, dəbdəbəli sözlərə, ifadələrə rast gəlmək olmur. Sözlər hamısı adi, sadə, hisslər sakit və həlimdir. Bu İlyas şeirinin zahiri tərəfidir. Bu sakit zahirin içində qəribə bir çılğınlıq və narahatlıq da gizlənir. Mən deyərdim əsl poeziyanın özü, elə bu narahatlıq və çılğınlıqdır. Şairin özü də əsl sənəti, dalğaların ahəngindəki çılğınlıqda görür.

İlyasın yaradıcılığı folklordan, xalq yaradıcılığından qidalanır. Onun elə şeirləri var ki, bunlar bayatıdan, aşıq şeirlərindən seçilmir.

...İlyas heç zaman özünü gözə soxmağa çalışmır. Başını aşağı salıb öz mütəvazi işi ilə məşğuldur. İlyas verdiyindən danışmaz, amma aldığını dönə-dönə təkrar edər. Allahın ona verdiyinə o, hər zaman şükran olmuşdur. Ona görə də yazır:

Görüb vurulmağı mənə göz verib,
Ana təbiətə təşəkkürüm var.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Ədəbiyyat tariximizdən bizə məlumdur ki, bir şeiriylə, hətta bir beytiylə də yaddaşlara əbədi həkk olunan şairlər olub, tam səmimiyyətimlə deyirəm, bu illər ərzində heç nə yazmamış olsaydınız, təkcə “Gədəbəydədir” şeiriylə ədəbiyyat tariximizdə əbədi yaşamaq haqqı qazanardınız. Qara sazın yaddaşına köçən şairlər ölmür, İlyas müəllim! Vaqiflər, Vidadilər, Xəstə Qasımlar, Səməd Vurğunlar kimi!

Şairin kimliyi, şəxsiyyətini görmək və duymaq istəyirsənsə onun doğulduğu torpağı yaxından tanımaq gərəkdir. Bu fikri hansı alim səsləndiribsə çox düzgün fikirdir. Mən İlyas Tapdıqla onun doğulduğu torpaqda, yer üzünün həqiqi cənnəti Gədəbəydə bir neçə dəfə olmuşam. Ona görə deyirəm ki, İlyas Tapdığın yaradıcılığı bizə təbiət qədər əzizdir.

**Zəlimxan Yaqub,**
*Xalq şairi*

Dahi Belinski deyirdi ki, “Uşaq şairi olmaq yox, doğulmaq lazımdır”. Son 50 ilin uşaq poeziyasını İlyas Tapdığın yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil.

Azərbaycan uşaq ədəbiyyatının, xüsusən şeirinin istedadlı nümunələrində məhz bu cəhət, yəni sözün ən sadə, lakin emosional təsir baxımından tez sirayət edən, rahat qavranılan, yaddaqalan, təmtəraq, elitarlıq və quramaçılıqdan uzaq xəlqi çalarından istifadə etmək bacarığı özünü göstərir. M.Ə.Sabirin, A.Səhhətin, A.Şaiqin uşaq şeirlərində formalaşan və Azərbaycan uşaq poeziyasının M.Seyidzadə, M.Rzaquluzadə, T.Elçin, X.Əlibəyli kimi görkəmli nümayəndələri tərəfindən cilalanıb inkişaf etdirilən həmin poetik xətt bu gün M.Əliyev, T.Mahmud, İ.Tapdıq, Z.Xəlil kimi uşaq şairlərinin əsərlərində estetik bir leytmotiv rolunu oynayır və uşaq poeziyasının effektli mütaliə və idrak materialına çevrilməsinə münbit zəmin yaradır.

**Elçin,**
*Xalq yazıçısı*

Ötən yüzillikdə uşaq ədəbiyyatı sahəsində iki yazıçımızın gərgin əməyini xüsusilə qeyd etmək istərdim. Onlardan biri XX yüzilliyin I yarısında bütün varlığı ilə öz yaradıcılığını uşaq ədəbiyyatının inkişafı və zənginləşməsinə sərf etmiş, Fərhad kimi külüngünü yerə qoymamışdır. Bunlardan biri, adı uşaqların dilinin əzbəri olan Abdulla Şaiqdirsə, ikincisi, onun zəngin ənənələrini davam etdirən, bu sahədə xeyli uğurlu əsərlər müəllifi kimi tanınan İlyas Tapdıqdır.

**Məmməd Araz,**
*Xalq şairi*

Əziz İlyas, sizi Rusiya yazıçılarının çoxmillətli qardaşlığı adından 50 illiyiniz münasibətilə təbrik edirik. Sizin uşaqlar üçün yaradıcılığınızı, poetik və tərcüməçilik istedadınızı yüksək qiymətləndiririk. Sizə cansağlığı, xoşbəxtlik, yaradıcılığınızda müvəffəqiyyətlər arzulayırıq!

**S.Mixalkov, A.Aleksin, V.Aleksandrov**





İlyas Tapdığı mən həm sevə-sevə, həm də ondan öyrənə-öyrənə tərcümə edirəm. O, Azərbaycan folklorunu gözəl bilir. Özü də müdrik bir nağılçıdır – poetik nağılçı. Mən sidq ürəkdən deyirəm, o, bizim Rusiyanın Marşak, Mixalkov, Borto, Prilejayeva kimi uşaq ədəbiyyatı korifeyləri ilə bir sırada dayana bilər.

**Valentin Berestov,**
*rus şairi*

Uşaqlara təbiəti sevdirən, onun mahiyyəti, faydası, tükənməz zövq mənbəyi olması barədə ağıllı yazılan əsərlərin dəyəri çoxdur. İlyas Tapdıq uşaq psixologiyasını və təbiəti dərindən duyur. Bu iki keyfiyyət onun “Təpələr” adlı kitabına topladığı şeirlərin bədii vəhdətində aydın görünür. Onun təbiətə dair uşaq şeirləri pillə-pillə qalxan yaradıcılıq yolunda əlvan çiçəklər kimidir.

**Qasım Qasımzadə,**
*şair, ədəbiyyatşünas*

İlyas Tapdığın uşaq əsərləri Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət, Rəşid Əfəndiyevlə başlayan uşaq poeziyamızın davamı kimi çox ibrətlidir. Dilinin saflığı və təmizliyi, süjetlərin təbiiliyi, tərənnüm etdiyi ideyaların əhəmiyyətliliyi etibarilə bu əsərlər uşaq şeirimizin İlyas Tapdığını qələm yoldaşlarından təmamilə fərqləndirir.

**Zahid Xəlil,**
*professor*

Azərbaycan uşaqları ona görə xoşbəxtdirlər ki, onların İlyas Tapdıq kimi gözəl şairi var.

**M.Prilejayeva**
*rus uşaq yazıçısı*

İlyas sevilən şairdir. Şeirləri sərhədlər keçir, ürəklərdən-ürəklərə yol alır, musiqi ilə qovuşur, mahnılara çevrilir, aşıqların sazında gül açır, güllənir.

İlyas – ürək şairidir. Poeziyanın ünvanı ürəklərdir.

İlyas Tapdığın bütün yaradıcılığı Vətənlə, ana torpaqla, ulu xalqımızla bağlıdır. O, uca səslə deyir: "Şeirimin canıdır bu el, bu Vətən!".

İlyas Tapdıq xalq məhəbbəti qazanmış söz ustadıdır.

**Nahid Hacızadə,**
*yazıçı*

"Bənövşə xatirinə kol dibinə iz düşdü"- İlyasın misrası yazdırıb mənə "Bənövşələr" şeirimi. İlyasın hər şeir kitabı bir qəm bənövşəyə oxşayır, təzə tər, ətirli şeirlərindən hər şöz, hər misra ürək kimi çırpınır".

Xalq poeziyasına, aşıq şeirinə yaxından bağlılıq, vurğunluq onun poeziyasına xüsusi bir oynaqlıq, səmimiyyət gətirir.

**Hüseyn Arif,**
*Xalq şairi*

İlyas Tapdığın poeziyası son 50-55 ilin Azərbaycan şeirinin keçdiyi yolun mənzərəsi barədə müəyyən təsəvvür yaradır. Təkcə uğurları ilə deyil, hətta çətinlikləri ilə birgə. Və bu mənzərədə İlyas Tapdığın da öz yeri görünür. İlyas Tapdığın ən gözəl və deyərdim ki, şah şeiri elə Gədəbəyə həsr olunub.

**Vaqif Yusifli,**
*Əməkdar incəsənət xadimi*

Təbiət və sadə insan əməyinin təsviri İlyas Tapdığın şeirlərinin əsas xüsusiyyətlərini təşkil edir. Bu onun Vətənə, vətən torpağına geniş və rəngarəng mənzərələrinə, qurub yaradan insanlarına vurğunluğundan irəli gəlir.

İlyas Tapdıq təbiət gözəlliyi ilə insannın ənəvi gözəlliyini vəhdətdə təsvir etməyi bacarır.

**Şəmşad Rza**
*şair, publisist*

İlyas Tapdıq sanki öz oxucularının əlindən tutub onları "niyələrinin" cavabını axtarmağa aparır. Sadə, anlaşıqlı bir dildə





onlarla söhbətə başlayır. Şair uşaqla uşaq kimi danışmır. Belə olsaydı böyüklər uşaq gözündə öz marağını itirərdi. Babaların nağılları ona görə əfsunludur ki, qocalar özünəməxsus hikmətlə, müdrikliklə danışıblar. İlyas Tapdığın şeirlərində bu mənada da bir özünəməxsusluq vardır.

**Nüsrət Kəsəmənli,**
*şair, publisist*

# Əsərləri

## Kitabları

### 1955

**1. Kəndimizin çobanı**: poema: [ortayaşlı uşaqlar üçün] /İlyas Tapdıqov.- Bakı: Uşaqgəncnəşr, 1955.- 16 s.

### 1958

**2. Bulaq başında**: [şeirlər] /İlyas Tapdıqov; red. Ə.Ziyatay.- Bakı: Azərnəşr, 1958.- 66 s.

***Kitabın içindəkilər:*** Lenin; Dağın qüdrəti; Atamın son məktubu; Bulaq başında; El bayramı; Deyirlər; Çinar; Səndən ayrı düşmərəm; Böyük şairə; Uman yerdən küsərlər; Lirik parça; Xəzərin çırpıntısı; Şümşad tütək; Söz qəlbimdə bir daş olur; Ürəyimin sevincidir; Qocaman sənətkara; Mən baxanda, sən də bax; Qızıl bayraq; Gözəl; Bakının gecəsi; Sevən qəlbim narahatdır; Ey günəşin al şəfəqləri!; Şeirimizin Çapayevi; Ürəyinə süzül; Kənddə qış; Ey zəfərlər şəhəri!; Bu şeiri sənə yazdım; Bolqar dostuma; Görüş yerində; Xalqın elçisinə; Xəcalət; Bu gün də; May gələndə; Unutmaram səni mən; Gopçu Natiq.

### 1959

**3. Gözlər**: [şeirlər] /İlyas Tapdıqov.- Bakı: Uşaqgəncnəşr, 1959.- 112 s.

***Kitabın içindəkilər:*** İlyas Tapdıq; Uca dağ; Nəğmənin qüdrəti; Xəzərin çırpıntısı; Qocaman sənətkar; Çinar; Kənddə qış; Xalqın elçisinə; Şümşad tütək; Müəllim. ***Gənclik:*** Bacım Hümayəyə; Doğma institut; Məni; Gənclik; Ey günəşin al şəfəqləri; Yüksəliş illərimiz; Ürəyimin sevincidir; Tunc biləkli oğullar; Qardaş; Dəniz lövhəsi. ***Mənim məhəbbətim:*** Söz qəlbimdə bir daş olur; "Yarın xəyalıdır"; "Tanış eylədilər..."; "Daraq çək, sığal ver..."; Gözlər; Yağış kəsdi; Təcnis; Ümid; "Qovuşdu il-ilə"; Uman yerdən küsərlər; Bulaq başında; Səndən ayrı düşmərəm; Bilmirəm; Gərəkdir; Deyirlər; Ürəyinə süzül; Mənim məhəbbətim. ***El bayramı:*** Çin; El bayramı; May gələndə; Zəfər ordusu. ***Müxtəlif şeirlər:*** Gopçu Natiq; Ömrün çox deyil; Gəlin; Dayı hardasan?; Saqqal; Tanıdığım bir gözələ; Naznazı; "Çox da sonulama...".





### 1960

**4. Xumar:** şeirlər: [məktəb yaşına çatmamış uşaqlar üçün] /İlyas Tapdıqov; rəs. Y.Ağayev.- Bakı: Uşaqgəncnəşr, 1960.- 16 s. şəkilli.

### 1962

**5. Arxalı dağlar**: [şeir və poemalar] /İlyas Tapdıqov; red. F.Məmmədov.- Bakı: Uşaqgəncnəşr, 1962.- 110 s.

***Kitabın içindəkilər: Şeirlər:*** Qurultay açıldı; "Elin sevincini, kədərini yaz...", Səksəkə; Gurla, dəniz!; Çinarlı Göyçay; Sahil yuxusu; Ər dağı; Əksim və qəlbim; Duyğuların gur seli; Son qoyun cinayətə!; Alagöz; "Məsləhətçi"; Xəbərdarlıq; "Özüm getmədim!"; İclasda; Gözə göründüm; Mənim adım olmasın; "Əzəldən tanıyır...". ***Poema:*** Arxalı dağlar.

### 1966

**6. Bir eşqin şimşəyi**: [şeirlər] /İlyas Tapdıqov; red. B.Vahabzadə; müqəd. Mir Cəlal.- Bakı: Azərnəşr, 1966.- 154 s.

***Kitabın içindəkilər:*** Bir neçə söz. Mir Cəlal; ***Səhər şəfəqində:*** Dönür; Səhər şəfəqində; Qıfıllar; Bircə qədəm qalıb; İnsan nəfəsi; Qələm gəzdi varaqları; Bir alim yatır; Vurğun bulağı; "Çiçəyin üstünə ayaq basanlar"; Evimin yaz nəfəsi; "Dağa-daşa salır ömür-gün bizi"; "Dağ gücü..."; Nizamiyə; Keçmişini düşündüm. ***Yüz il burda yaşasaydım...:*** Ağ şanı, qara şanı (nəğmə); Balakəndə; Gəzdikcə səni; Payız gəlib Qarabağa; Aranla dağ arasında; "Pirşağının qovut qumu"; Gədəbəydədir; Daşkəsən lövhələri; Dağ şəhəri; Yüz il burda yaşasaydım; Daş yollar;

Arıların səsi; Dağlar çapılır; Qoca gördüm; Axır dəmir səbətlər; Cavan ağac; Şimşək çaxdı; "Dağ çapanın..."; Tək qəbir; Cüyür; Ucadır Qoşqar dağı!. ***Bir eşqin şimşəyi:*** "Kim deyir..."; "Gözlərin..."; "Az deyil..."; Atalı yetim; Bir eşqin şimşəyi; Laboratoriyada; "Əl boyda bir kağıza..."; Gözəl; "Ayrılardıq"; Bir otaq, bir dünya; Qarşılaşdıq; "Deyirsən..."; Dünyada çoxdur. ***Təbiət duyğuları:*** Meşədə; "Xınalı kəklikli..."; Şəlalə; Küləyin ləpirləri; Kol dibinə iz düşdü; Bahar lövhələri; Meşə dinmədi; Qum dustağı; "Zirvələrə dırmaşan..."; Bulaqlar; Yanıq vələs; İki daşın hekayəti; İldırım; Meşəbəyi. ***Görsəydi qırmazdı:*** Hər sözə ortaq – iki yaltaq; Çəməndə (təmsil); Görsəydi, qırmazdı; "Dayandırdı yolda məni bir nəfər"; Söhbət düşdü; "Zamanın səsinə dinməz"; "Şairlik eşqiylə"; Vay onda; Janrdan-janra; Döşünə döyənlər; Ağır yeriyər, ağır oturar; "Quyruğun buyruğu var"; Görməmiş qonşu; Başıdaz-iclasbaz; Gələrəm amma; "Bir işdən ötrü"; Bağışla a naçannik!..; Üç canavar; Palıd ağacıtək yan!.

**1967**

**7. Çimnaz oynayır**: [kiçikyaşlı uşaqlar üçün şeirlər] /İlyas Tapdıqov.- Bakı: Gənclik, 1967.- 48 s. şəkilli.

***Kitabın içindəkilər:*** Cığal Bilal; Bakı; Bilirsənmi, ay Sənəm?; A Toplan; Xəzər; İş azalmır; Elçin ayaq açır; Təranənin kitabı; Arı və Camal; Əkizlər; Cüyür; Güləş; Qızılgül üzəndə; Qar istədi Şəbnəm; Nanə; Mələyin hörükləri; Mən kiməm?; Sərgi; Ağ şanı, qara şanı; Ata, gəl gəzək; Sevil küsüb; Mən xalamın qızıyam; Cırnağan; Aybənizin dişi; "Milsəner əmi"; Kimdir çəkən bu şəkli?; Məktəbə gedəcəyəm; Bağçaya çıx; Ay niyə qaçır?; Əkizlər yatdı; Balaca ovçular; Heydər; Çimnaz oynayır; Maralgöl; Fazilin nənəsi; Nağıl; Moskva; Gültəmin saçı; Qoç və uşaq; May gəlib.

**1968**

**8. Əksim və qəlbim**: [şeirlər və poema] /İlyas Tapdıqov; red. S.Əsəd.- Bakı: Gənclik, 1968.- 216 s.





***Kitabın içindəkilər:*** Duyğular seli: Əyilmə, büdrəmə!; Qranit faciə; Çoxdur dünyada gözlər; I. Duyğular seli; II. Onun mükafatı; Şüşələrdə yaşayan bədən; Yadigar çinar; Torpaqda məhəbbət; Balakəndə; Şübhə; "Zaman"; Gözəl də, qəzəl də; Pəhləvanın qocalığı; Atamın son məktubu; "Dağa daşa salır"; Bakı gecəsi; Anam; İllərin məcrası; Səksəkə; Kin daşı; Torpaq səslənir; Nizami; "Eşitdik..."; Günlərin axarı; Bacım Hümayəyə; "Göy quşum-Göyərçinim"; Gədəbəydədir. ***Daşkəsən lövhələri:*** Dağ şəhəri; Yüz il burda yaşasaydım; Qoca gördüm; Daş yollar; Arıların səsi; Dağlar çapılır; Axır dəmir səbətlər; Cavan ağac; "Ot üstündə"; "Dağ çapanın". ***Dəniz... Sahil... Məhəbbət:*** Ucadır Qoşqar dağı; "Dağ yolu"; Cüyür; "Xınalı kəklikli"; "Zirvələrə dırmaşan"; "Ətəyini..."; Yanıq vələs; Torpağın qoca sakini; "Gəzirəm meşəni"; "Göylər elə nurladı"; Bahar lövhələri; Bulaqlar; Kənd qışından lövhələr; Qar yağır; Ağ şanı, qara şanı; Dəniz... Sahil...; "Xəzəri od sardı"; Küləyin ləpirləri; Gurla, dəniz! "Dünən burda..."; Sahil yuxusu; Şirəli torpaq; Mənə dəniz bağışladın; Gül bağışladım; Bir otaq; "Leyli yarım..."; "Alovla yoğrulan"; "...Həyanım"; Bulaq başında; "Ürək dönsə..."; "Yağış kəsdi"; "Deyirəm"; Səninlə qarşılaşdıq; Bilmədim; Bir ürək eşqimi; Ürəyim; "Mən gözlərə şeir yazdım"; Əksim və qəlbim. *Gözə görünənlər:* Ağır... Yüngül; Rəis gələndə; Gözəgörünən; "Nəzakətli"; Usta-şagird; Kök-arıq; Şəxsi tələb; İştah tərifi; Sözə ortaq-iki yaltaq; Salamat qal; Çobanam; Ömürdən fəsillər (poema).

**1969**

**9. Təpələr**: [şeirlər] /İlyas Tapdıqov; red. F.Sadıq.- Bakı: Gənclik, 1969.- 58 s.

***Kitabın içindəkilər:*** Dəmir od əmir; Bildirçin; Arzunun gülü; Aşıq; Əncir; Təpələr; İsti qumda; Dəmir ağacı; Əhməd baba; Üzüm; Ay batdı, ayı yatdı; Ovçu və tülkü; Balaca baramaçı; Kəmalə; Sovet Ordusu; "Arı" deyirmiş; İldırım; Dostluğun gücü; Balaca sağıcı; Pambıq; Ay-topudur dəcəlin; Meşənin mahnısı (poema).

## 1970

**10. Bir gülün qönçəsi**: [şeirlər] /İlyas Tapdıq; red. Ə.Salahzadə.- Bakı: Gənclik, 1970.- 123 s.

***Kitabın içindəkilər: Durnanın gözü kimi:*** Lenin ömrü; Buruqlar; "İllər düyün-düyün..."; "Dolama yollarla dağa çatanda"; Bakı küləyi; "Şimşək" şeir silsiləsindən: 1. "Bulud dağlarının..."; 2.Cırmaq; 3.İldırımötürən; Kəlbəcərdədir; Pillələri qalxsaydın; Cəmcəməli; Xəyalım bir əsrin sonuna vardı; "Oğul deməyirik hər yetənə biz..."; Səfərə çıxmışıq; Sazım; "Yüzillik həyatı"; "Babam belə deyirdi" silsiləsindən. 1. "Yaman yerdə..."; 2."Ürəyimin halına bax"; "Nənəm belə deyirdi" silsiləsindən. 1."Doğulub dünyaya gəldiyi gündə"; 2."Yaxşı adam..."; Makinaçılar otağında; Aldanmaram. *Ləpələrin təbəssümü:* "Səbrin daş səddini keçə bilmədim"; "Yox, sevə bilmərəm"; "Dağlar övladıyam, dağ həvəsində"; Məzəli şeir; Olmayıb; "Bir söhbətdə ha çalışdım dinməyim"; Mənim eşqim; Ləpələrin təbəssümü; "Səp gülüm üstə..."; "Yasəmən..."; Bir gülün qöncəsi; Gəl... Gəl...; "Dostların məhəbbəti" silsiləsindən. 1.Səs; 2.Soruşmasam yaxşıdır; Pilləli düşüncələr (poema). ***Tərif tərifləndə:*** Sözün ünvanı; Sənətə hörmət; Tərif tərifləndə; Qarışqa dəcəlliyi; "Sənin öz sənətin..."; Qoltuqdankənar; İnsafsız; Əyri oturub düz danışsaq; Söhbət yolu qısaldır; Zirvədə; Niyabətin nitqi; Boğazdan yuxarı; Dindar xəstə; İçi boşsa-baş nədir?; Bəzəmələr.

## 1971

**11. Bir evim var**: [azyaşlı uşaqlar üçün şeirlər] /İlyas Tapdıq; red. Fikrət Sadıq; rəs. Rasim.- Bakı: Gənclik, 1971.- 12 s.

***Kitabın içindəkilər:*** Yazıq arı; Qarr! Qarr!; Qorxaq qurbağalar; Ayı kim sındırıb?; Armud; Qonaq; Cüyür; Bir evim var...

## 1973

**12. Meşənin mahnısı**: [şeirlər və poemalar] /İlyas Tapdıq; red. Məmməd Araz.- Bakı: Gənclik, 1973.- 191 s.- 1 v. şəkil.

***Kitabın içindəkilər: Körpə günəş:*** Təpələr; Baba və balaca Mehriban; Çimnaz oynayır; Ata, gəl gəzək...; İş azalmır; Aybənizin dişi; "Milsəner əmi"; Mən kiməm?; Ata, sən qocalırsan; Qar istədi Şəbnəm; Pambıq; Balaca baramaçı; Balaca sağıcı; Təranənin kitabı; Elçin ayaq açır; Qızılgül üzəndə; Ayı kim sındırıb?; Mən xalamın qızıyam; Nanə; Qardaşların sevinci; Arı və Camal; Ay niyə qaçır?; Mələyin hörükləri; Bağçaya çıx!; Gültəmin saçı; Nağıl; Kəmalə; Məktəbə gedəcəyəm; "Arı" deyirmiş!...; Fazilin nənəsi; Kimdir çəkən bu şəkli?; Yazıq arı; Heydər; Qorxaq qurbağalar; Əkizlər; Əkizlər yatdı; Yanıltmaclar; Zəminənin zoğalı; Keçim; Sevil küsüb; Qoç və uşaq; Maralgöl; Sərgi. ***Dağ yeli:*** Bildirçin; Cüyür; Qarr! Qarr!; Ay batdı, ayı yatdı; Bal axtardı; Ovçu və tülkü; Dəmir ağacı; Püstə ağacı; Arzunun gülü; Üzüm; A Toplan!; Bir evim var...; Ağ şanı, qara şanı; Qızılgül; Əncir; İsti qumda; Armud. ***Qəhrəmanlar nəsli:*** Moskva; Qəhrəmanlar nəsli; Dostluğun gücü; Dəmir od əmir; May gəlib; Bilirsənmi, ay Sənəm?..; Bakı; Sovet ordusu; Aşiq; Əhməd baba; Güləş; Cırnağan; Qara şum: Xəzər; Balaca ovçular. ***Səhər şəfəqində:*** Lenin ömrü; Dönür; Gurla, dəniz!; Atamın son məktubu; Daşkəsən lövhələri; 1.Dağ şəhəri; 2.Yüz il burda yaşasaydım; 3.Daş yollar; 4.Arıların səsi; 5.Dağlar çapılır; 6.Qoca gördüm; 7.Axır dəmir səbətlər; Ucadır Qoşqar dağı; Torpağın qoca sakini; Batabat yaylağı; Çinarlı Göyçay; Ər dağı; Küləyin ləpirləri; Səhər şəfəqində; Dəniz lövhəsi; "Dünən burda..."; Sahil yuxusu; "İllər düyün-düyün..."; Səksəkə; Şəlalə; Kol dibinə iz düşdü; Bahar lövhələri; Meşədə; Yanıq vələs; İki daşın hekayəti; Uca dağ; "Xınalı kəklikli..."; İldırım; Şümşad tütək; Bulaqlar; Dağ yolu; Kənd qışından lövhələr. ***Meşənin mahnısı:*** Cığal Bilal; Şüvəlanda; Ovçu Nağı; Qoçaq dovşan; Meşənin mahnısı.

## 1976

**13. Xoruz və siçan**: [nağıl] /İlyas Tapdıq; red. V.Nəsib; rəs. Elmaz.- Bakı: Gənclik, 1976.- 10 s. şəkil.

**1977**

**14. Qızlar qağayılar**: [şeirlər və poema] /İlyas Tapdıq; red. Müzəffər Şükür.- Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977.- 152 s.

***Kitabın içindəkilər:*** Kür dənizim; Qızlar, qağayılar; Abşerona yaşıl meşə yaraşır; Şəki; Dağın ürəyi var; Balakəndə sübh çağı; Dilican; Daşkənd; Peredelkinoda; "Dolama yollarla..."; Bakı; Gurla, dəniz; Xəzərin söhbəti; Ləpələrin təbəssümü; "Dünən burda"; Sahil yuxusu; Kəlbəcərdədir; Şiraslan; Dağ yolu; Torpaq səslənir; Qaya köksündə; Torpağın qoca sakini; "Gəzirəm məşəni"; Yanıq vələs; "Zirvələrlə dırmaşan"; "Ətəyini"; Demək olmaz; Bahar yolu; Hə deyim; Torpaqda məhəbbət; "İllər düyün-düyün..."; "Xəyalım bir əsrin sonuna vardı"; Qatar səsi; Qranit faciə; Bir günəşdir qanunum; Mənim böyük Vətənimdə; Mən sənə səs verirəm; Anam; Günlərin axarı; Pəhləvanın qocalığı; Qoşqar; Durnanın gözü kimi; Ata hörməti; Güllər güllərə qovuşur; Təzə ildə; Atalı yetim; Şüşələrdə yaşayan bədən; Bir alim yatır; Ürəyim; Şeirlə dincəlirəm; Sazda ana laylası var; Sənə ustad deyərəm; Gülün qönçəsi; "Deyirəm..."; "Bir otaq..."; Dağlar yorulsun; "Səbrin daş səddini"; Xatirə; "Yox! Sevə bilmərəm"; Neylərəm; "Mən sənin yanında"; Gəl... Gəl; "Deyirsən..."; Fərqinə varanda; Xəbis; Həsəd, sevgi; "Nidalı rədiflər"; Sən də bir düşmənsən; Qara ürəkliyə; Kosa bığ saxlayır; "Döyünməyi ürəyə de"; Bu şeirimi qansa; Vəzifə; Ayıq ol ki; Qurd aqibəti; Aravuran; "Üç"ə bərabər oldu!..; Tülkünün tülkülüyü; Pilləli düşüncələr (poema).

**1979**

**15. Çiçəklərim, güllərim**: [kiçikyaşlı uşaqlar üçün şeirlər və poemalar] /İlyas Tapdıq; red. M.Ələkbərli.- Bakı: Gənclik, 1979.- 212 s., 1v.şəkil.

***Kitabın içindəklilər: Ay niyə qaçır?:*** Qəhrəmanlar nəsli; Dostluğun gücü; Moskva; Əkizlər; Fazilin nənəsi; Kimdir çəkən bu şəkli?; Heydər; Əkizlər yatdı; Sərgi; Ay niyə qaçır?; Mələyin hörükləri; Bağçaya çıx; Gültəmin saçı; Nağıl; Kəmalə; "Arı" deyirmiş; Arı və Camal; Qardaşların sevinci; Nanə; Təranənin kitabı; Balaca sağıcı; Balaca baramaçı; Pambıq; Qar istədi Şəbnəm; Ata sən qocalırsan; Aybənizin dişi; İş azalmır...; Baba və balaca Mehriban; Çimnaz oynayır; Ata, gəl gəzək; Təpələr; Nərgizlər; Bağça gülləri; Kür yanır; İməcilikdə; Nə sən dəcəlsən, nə mən; Şahinlə Nərgiz; Ay səni, dəcəl pişik!; Mətanət; İyirmi yaşlı "Göyərçin"; İlin zəfər yolu; Dostumun oğlu Qədim; Düşərgədən məktub; Mən kiməm?; Elçin ayaq açır; Qızılgül üzəndə; Mən xalamın qızıyam; Ayı kim sındırıb?; Yanıltmaclar; Zəminənin zoğalı; Keçim; Qorxaq qurbağalar; Yazıq arı; Arzunun gülü; Balaca Artur. ***Ay batdı, ayı batdı:*** Tut ağacı boyunca; Kəklikotu; Arının evi; Cüyürmüş; Sığırçınlar, sığırçınlar; Sevinsinlər, sığırçınlar; Yulğun; Yollar, cığırlar; Ay batdı, ayı yatdı; Qarr, qarr; Cüyür; Bildirçin; Maralgöl; Bal axtardı; Ovçu və tülkü; Dəmir ağacı; Püstə ağacı; Bir evim var...; Üzüm; Ağ şanı, qara şanı; Qızılgül; Əncir; İsti qumda; Armud; Üç dəcəl ağacdələn. ***Bilərsənmi, ay Sənəm...:*** Bahar yurduma baharla gəldi; Əqlin hünəri; Zərbəli müəllim; Bilirsənmi, ay Sənəm...?; Dəmir od əmir; Kəndi; May gəlib; Xəzər; Sovet ordusu; Aşıq; Əhməd baba; Qara şum; Sevil küsüb; Boz papaq; Qoç və uşaq; "Milsəner əmi"; Güləş; Cırnağan; Balaca ovçular; Qaçmağa qoçaqsan; Daş atan uşaq; Tağının qorxaqlığı. ***A toplan (mahnılar):*** Məktəbə gedəcəyəm; Bakı; Çiçəklərim; Yeni il töhfəsi; Gənc şahinlər; "Toplan və onun kölgəsi". 1.Səhər idmanı; 2.Toplanın mahnısı (şən); 3.Toplanın mahnısı (qəmli); 4.Xor üçün mahnı; A Toplan. ***Meşənin mahnısı (poemalar):*** Təqvimə düşən oğlan; Cığal Bilal; Şüvəlanda; Meşənin mahnısı.

**1982**

**16. Qoçaq dovşan**: [şeirlər və poemalar] /İlyas Tapdıq; red. Z.Şahsevənli.- Bakı: Gənclik, 1982.- 144 s.

***Kitabın içindəkilər: Günlərin adı:*** Şən qız; Külək sındırdı; "Körpə"yə; Günsük; Qorxu; Kür uşaq; Oyunbaz meymun; Çəpiş; Nərgiz; Bülbül; Nəğməli tütək; Kəklikotu; Gün gülsə; Elnarənin evi; Yanıltmaclar: 1."Ay Gülçöhrə"; 2."Kim görüb"; 3."Ay

Sənəm”; Telli; Saat və cücə; Qumru, Qumral; Günlərin adı; Babaya kömək; Boz yumaq əhvalatı; Tut ağacı boyunca; Zabitə; Külək-gül əkdi; Boş yuva; 4. Sənin həyatda izin. ***Təqvimə düşən oğlan:*** Qoçaq dovşan (poema); Təqvimə düşən oğlan (poema); ***Bahar kimi doğulduq:*** Sovet ordusu; Yeni il töhfəsi; Çıq-çıq; Məktəbə gedəcəyəm; Azərbaycan; Dəcəl pişik; Bakı; İməcilik; Çiçəklərim; Gənc şahinlər; Mənim böyük Vətənimdə; Səhərlə başlayan arzu; Şıltaq günəş; Bahar kimi doğulduq; Səhər idmanı; Toplanın mahnısı (şən); Toplanın mahnısı (qəmli). ***Günəş və ürək:*** ***Rober Desnos (Fransa):*** Dəstərək; Qarışqa; Ayı. ***Eduardas Mejelaytis (Litva):*** Dovşan-oğlan. ***Valentin Berestov (RSFSR):*** Şən yay; Pişik və küçük; Xəstə kukla; Dana; Pişik; Yatağan ayı; Qabagirən; Ayın itməsi-it səsi; Dovşan izi; Bir sentyabrqabağı; Kim nəyi öyrənir; Çiyələkyığan; Məktub; Oyuncaq dovşan meşədə; Qorxaq qurbağa; Keçi; Cücəli toyuq; Oyuncaq maşın; Uç görüm; Oyun vaxtı; Səhər laylası; Səhər-səhər; Günəbaxan; Meşə kənarı; Qağayı; Bayquş və arıquşu; Saymağa başlayıram. ***İrina Pivovarova (RSFSR):*** Şəkil; Axşam və səhər; İlbiz; Köhnə pilləkən; Göl üzündə axşamlar; Dəniz ulduzları; Kötük; Yapalaq; Nəhəngin bardağı; Göy fincan. ***Lev Kondırev (RSFSR):*** Şaxta baba. ***Valentin Lukşa (Belarusiya):*** İlk kitabım. ***Kayum Tanrıquliyev (Türkmənistan):*** Tısbağanın evi; Tısbağa; Qırqovul; Şanapipik; Nar çiçəkləri; Bayxan və Ayxan; Buğa; Kirpinin məktubu; Tovuzquşu; Qartal; Ala-tau. ***Nuru Bayram (Türkmənistan):*** Mənim yurdumda; Qamışlar; Əgər. ***Müzəffər Alımbayev (Qazaxıstan):*** Barmaq; Keçi və quzu. ***Qurgen Qabrielyan (DQMB):*** Mübahisə; Təvazökarlıq; Nənə və nəvəsi; Rəssam Nunu; Bibər; Qoçaq Seyran; Tülkünün arzusu; Arı; Gecən xeyrə qalsın; Uşaq və vedrə; Məktub; Qızaran narlar; Cücə; Alikin maşını; Cik və cük; Baba və nəvə; Nənənin çeşməyi; İlk qar; Ağıllı kukla; Tülkü; Şogikin sırğaları; Ninel və Nanar; Nənə; Tənbəl Hayqaz; Qar. ***A.Şərifi (Tacikistan):*** Birinci “beş”. ***Helo Myənd (Estoniya):*** Dəcəllər. ***Dmitri Qulia (Abxaziya):*** Günəş və ürək. ***Elmir Mkrtıçyan:*** Zolaqlı qarpız; Qovun; Pomidor.





**1984**

**17. Özümlə görüş**: [şeirlər] /İlyas Tapdıq; rəs. Y.Salnikov.- Bakı: Yazıçı, 1984.- 320 s., 1 v.port., şəkilli.

***Kitabın içindəkilər:*** Qalan şeir oldu; Sənin həyatda izin; Dönür; Mətin illər; Muğanda meşə sal...; Aktyor ömrü; Bəxtəvərdir; Qürbət elə köçdünüz...; Özümə xitabım; Yüz tərif söyləyənə...; İstək; Böyük dərd; Bir günəşdir; Ağaclar quruyur yol qırağında; Hörmət; Dünyada çoxdur gözlər; Torpaqda məhəbbət; Yaz günəşindən sonra; Çayın da bir anlıq qırılar beli; Qızlar, qağayılar; Şüşələrdə yaşayan can; Şübhələr; Sazım; Yarpaq toyu; Nəğməli ömür; Moskvalı həkim Valentina Mixaylovnaya; Şair dostuma; Göygöldən soruş; Həkim; Köhnə illə söhbət; Ey günəşin al şəfəqləri!; İki daşın hekayəti; “Zirvələrə dırmaşan”; Şəlalə; Dünya; İllərin məcarasında; Dünya gülzar oldu; Hələ arzular var; Bu hava ələ düşməz; Qatar səsi; Əksim və qəlbim; Qalan şeir oldu; Dördlüklər; Əziz bir insanı xatırlayıram; Aktyor dostum; Könül susur; Qoşqar; Gülə tapşırın; Elegiya; Qarşıda payız var; Uzanır yollar; Qürub yaxındır; Nəğməli dünyam; Yenə doğul, Bülbülüm! ***Yüz il burda yaşasaydım:*** Ürəyimin sevincidir; Kür dənizim; Dağ şəhəri; Səfərə çıxmışıq; Tükənməyən şeiriyyət; Meşədə; Kol dibinə iz düşdü; Kür üstünün baharı; Dağ yolu; Bahar lövhələri; Torpağın qoca sakini; Yanıq vələs; Batabat yaylağında; Kəlbəcərdədir; İndi Gədəbəyin yaxşı vaxtıdır; Ər dağı; Dağın ürəyi var; Daşkənd; Peredelkinoda; Balakəndə sübh çağı; Dilican; Çinarlı Göyçay; Gədəbəydədir; Balakəndə; Aranla dağ arasında; Şəki; Xoş gəlir; Payız gəlib Qarabağa; Barlı payız; Payızın tonqalları; Ucadır Qoşqar dağı. ***Abşeron yarpaqları:*** Bakının gecəsi; Bakı; Buruqlar; Bakı küləyi; Təzə libaslı Bakı; Hasarlar arasında (lövhə); Ağ şanı, qara şanı; Abı-şirin; Küləyin ləpirləri; Ləpirlərin təbəssümü; Şirəlitorpaq; Qum dustağı; Sahil yuxusu; Xumarlanar dənizim; Abşerona yaşıl meşə yaraşır; Yaşıllıq yaxşılıqdır; Dəniz mərhəmətiylə. ***Məhəbbət nağılı:*** Ürək danışırsa, danışırıq biz; “Mən sənin yanında”; Gül dadır; Söz qəlbimdə bir daş olur; Mənim eşqim; Dağlar yorulsun...; Sevgim mənim; Külək və məhəbbət; Ay mənim gənclik məhəbbətim!;

Təzə yol çəkdirib, körpü çəkdirib.
Qızı Şəbnəmin də mahnılarından
Çələng düzəltdirib...“Cəngi” çaldırıb.





Hərdən qarşılayar qonaq gələni, -
Təkcə söz ilə yox, hətta güllərlə.
Çoban dostlarının sıxıb əlini.
Şınıxda görüşür döyüşçülərlə.

İlyas – xeyirxahlıq, saflıq carçısı,
Yazıb gözəllikdən azı min əsər;
Kamran Rzazadə mahal başçısı
Neçə qoşmasını söyləsin əzbər!

Suyunu içdiyi çeşmə saf, təmiz –
Yayda diş dondurar, qışda istidir;
Mübarək qədəmi uğurlu, əziz.
Nəfəsi kimsəsiz evi isidir.
İki bulağı var İlyas Tapdığın –
Biri köksündədir, biri dağdadır.
O da Gədəbəyin - ülvi torpağın
Oğlu tək günbəgün ucalmaqdadır!

***Oqtay Rza***

## İlyas Tapdıq

*Şairin 70 illiyinə*

Ay ellərin şair oğlu,
İlyas Tapdıq, İlyas Tapdıq!
Keçən ömrü, ötən günü,
Biz sözündə bulduq, tapdıq!

Şair, sənin hər sözündə,
Dağlarımın qüruru var.
Bahar gəzən durnalardı.
Sıralanıb qatar-qatar.

Azərbaycan səmasından
Uçub gedir eldən-elə.
Gəzir Turan məkanında,
Ağız-ağız, dildən-dilə.

Ey ilhamı bulaqların
Saf suyundan içən şair.
Qırğı gözlü zərgər kimi,
Sözü sözdən seçən şair.

Könül açan hər sözündə
Gədəbəyin səfası var.
Ataların məğrurluğu,
Anaların laylası var.
Şeirin, sözün şərəfini,
Qorudun sən, daşıdın sən.
Tanrı verən bir ömürü
Şair kimi yaşadın sən.

***Dəmir Gədəbəyli***

* * *

Var ol, İlyas Tapdıq,
ey böyük şair,
Nə etdik, nə yazdıq
biz sənə dair,
Sən incə rübablı,
dadlı şairsən.
Şöhrətli, şərəfli,
adlı şairsən!
Gənclikdən biz sənlə
ülfət bağladıq,
Bəzən təb-təb olub
coşduq, çağladıq.
Zərgər dəqiqliyi
öyrəndik səndən,





Səni yaşadacaq
müqəddəs Vətən!
Sən əsl şairsən,
Kəbirli dostu.
Ağıllı, çox müdrik,
səbirli dostu.
Baxıram, hər sözün
bir sütun, qala.
Sən şeir atını
çapdın dördnala!
Özün bir dünyasan,
şeirin bir qala!
Bu sadə misralar
könlümə yardı,
İlyas şair kimi
çox bəxtiyardı.

***Ənvər Əhməd***

## İlyas Tapdığın

*Şair dostum İlyas Tapdığa*

Dağlarda doğulan dağ təbiətli.
Bir şair yaşayır nurlu, hikmətli.
Hər fikri, öyüdü zərdən qiymətli
Qorqud dünyası var İlyas Tapdığın.

İmanı güc alır haqqa inamdan,
Hörüb hörgüsünü sözdən, kəlamdan
Sönməz məhəbbətdən, coşğun ilhamdan
Mahir bənnası var İlyas Tapdıgın.

Gözəllik cilvəsi düzü-dünyası,
Oddan tutulubdu eşqi, mayası.
Şeirdən, sənətdən nəhəng binası.
Məğrur qalası var İlyas Tapdıgın.

Sözdən ayrılmayıb öz həyatında.
Əbədi çapıbdı köhlən atında,
Hər sətrin üstündə, sözün altında.
Dərin mənası var İlyas Tapdığın.

Əlində qələmi, döşündə sazı,
Şairlik taledən alnında yazı.
Gədəbəy gəlini - Balakən qızı,
Sular sonası var İlyas Tapdığın.

O, böyük şairdi, o, adlı-sanlı,
Vurğun məhəbbətli, Hüseyn ünvanlı.
Azərbaycan adlı şöhrətli-şanlı
Doğma anası var İlyas Tapdığın!

***Eldar İsmayıl***

## İlyas Tapdığa

İlyas Tapdıq - şeirin, sözün zərgəri,
Səsi səsdən, tükü tükdən seçirdin.
Dilimizin sən döyüşkən əsgəri,
Şeirimizi keçidlərdən keçirdin.

İlyas Tapdıq - şeirin, sözün bağbanı,
Yaxşı tutdu o vurduğun calaqlar.
Yoxsa indi deyərdik ki, bağ hanı?
Boy versəydi o çəkdiyin alaqlar.

Vaqif, Vurğun bir əbədi çeşmədi,
O, sənin də ürəyinə axırdı.
Yaxın düşüb o çeşmədən içmədi,
Kim dargözdü, kim xaindi, paxıldı.





İlyas Tapdıq - qaya üstə tək ağac,
Şeirimizin daşdan süzən bulağı.
Keçid dövrü, zalım qəsdi, ehtiyac
Qoy əyməsin göyə bülənd budağı!

Ayı, ili muncuq-muncuq çinləyib,
Muncuq ana öz səbriylə qızıldı.
Sən bu yaşda ata yurdu şenləyib
Obaların yaddaşına yazıldın!

İlyas Tapdıq, mənim doğmam, əzizim,
Açıq deyim, ev bizimdir, sirr bizim,
İrəlidi könül candan, irəli,
Gözəlləri heç gözündən qoymadın.
Sən sevgiyə həsr etdiyin günləri
Bəzən sevgi şeirinə də qıymadın.

Bir incidi o yazdığın şeirlər.
Gül dodağa, şirin dilə qonası.
Gədəbəydə ev tikibsən deyirlər,
Qanad açsın Balakənin sonası.

Çəmən-çəmən şeirlərin hamisi,
Çiçək-çiçək misraların arısı...
İlyas Tapdıq, şairlərin hamısı
İlhamından, ürəyindən yarısın!

***Musa Ələkbərli***

## İlyas Tapdıq

At minib düzlərdən dağlara çapdıq,
Cəhd edib, zəng çalıb İlyası tapdıq.
“Dəyirman” unundan bir çörək yapdıq.
Gəl qonağımız ol, sən İlyas Tapdıq.

Şairlər içində adın bəllidi,
Şeir kitabların yüzdü, əllidi,
Türk dünyası sənlə ayaq, əllidi,
Deyirəm bu sözü mən İlyas Tapdıq.

Kəndinin “çobanı” neyini çalar,
“Arxalı dağlar’ın xəyala dalar.
“Bulaq başında” da “Çimnaz oynayar”
Sənsən bu dünyaya tən İlyas Tapdıq.

“Bir eşqin şimşəyi” çaxır ömründə,
“Bir gülün qönçəsı” xumar telində,
“Meşənin mahnısı” ötər dilində -
Örtməsin üstünü çən İlyas Tapdıq.

“Bir evin var” təpələrin dalında,
“Nağıllı ağaclar” bitib yolunda,
“Qızlar, qağayılar” sənin yolunda,
“Gözlər” “Şıltaq günəş” şən İlyas Tapdıq.

***Bəhlul Abdulla***





## Yurd-yuva bilirəm

Məndən alınmasın yurdum, ay Allah!
Dözərəm, nə olsun, gec görüm təki.
Qoy, ildə bir dəfə gəlim qoynuna,
Gəlim bulaqları başıma çəkim.

Ora cənnətimdir dağı, daşıyla,
Kaş ki, əskilməsin səsi, harayı.
Dağlarda özünü qayadan atsın,
Aranda dincəlsin kükrək dağ çayı.

Düşüncəmə gəlir otaq küncündə
Kənddən yaylaqlara atı çapdığım.
Suyu tək saf olur dağ adamları,
Yurd-yuva bilirəm İlyas Tapdığı.

Düşübdür şəhərdə öz kəhərindən,
Saç ağarıb, neçə dağa qar düşüb.
Dünya oyunlara qatır başını,
Bir də görürsən ki, illər ötüşüb.

Çoxbilmiş olursan baş çəkdiyindən,
“Ağsaqqal” deyirlər, “ahıl” deyirlər.
Səsini çıxarsan haqqın uğrunda,
Gözün görə-görə güllələyirlər.

Söz gülləsi olsun, ya əl gülləsi,
Yaralı gəzirsən ömrün uzunu.
Düşmən şaha qalxıb, üzə duranda,
Gücsüzsənsə, yoxdur haqqın yozumu.

İtirəcəyini bilib analar,
Yenə “Tapdıq” adı qoyub oğluna
Ki, başı qarışsın yalan dünyaya,
Balaları uysun onun nağlına.

Təki balaları ağrı çəkməsin!
Analar dəryadır, analar dağdır.
Hər ana yaradan olsa da, yenə
Sfi havası ərdir, suyu uşaqdır.

Səni yurd-yuvana bənzər yaradıb,
Varadan, el oğlu, ay İlyas Tapdıq!
Xızır peyğəmbərin ruhu üstündə
Sən ağsaqqallığı, el səni tapdı.

Sözünlə el üçün, yurd üçün varsan,
Var olmağın özü tapmaqdır, atam!
Hər kəs söyləyirsə, sözün düzünü.
O Haqqa yetişib, çatmaqdır, atam!

***Məlahət Yusifqızı Qaramuradlı***

## Lənkərandadır

*İlyas Tapdığın məşhur*
*"Gədəbəydədir" şeirinə nəzirə*

Mənə də qulaq as, sevimli şair,
Eşqin göz bəbəyi Lənkərandadır.
Kimlər ki, sevilir, kimlər ki, sevir,
Arxası, kürəyi Lənkərandadır.

Xəzərdən meh əsər, sərindən-sərin,
Sinəmdən ah ötər dərindən-dərin,
"Mehrabı eşq olan uca göylərin
Talışdağ dirəyi Lənkərandadır.

Başımız üstündə çıraqdır Həzi,
Şöhrət zirvəsindən səsləyir bizi.
Əsgər oğulların bükülməz dizi,
Pəhləvan biləyi Lənkərandadır.





Durna qatarından səpilir qubar,
Yadıma düşdükcə səbrim daralar;
Orda ata qəbri, ana qəbri var,
Ayrılıq küləyi Lənkərandadır.

Ey qələm! Od bələn, nə sın, nə əyil,
Dara çəkildikcə ötərsən dil-dil.
Simuzər Bakıya can desə də, bil,
Pərvanə ürəyi Lənkərandadır...

***Simuzər Nüsrətbəyli***

## Ay ustad

*Görkəmli şairimiz İlyas Tapdığın*
*65 yaşı münasibətilə*

O qoca dağlara vüqar olmasan,
Adını oğul tək tutmaz, ay ustad!
Ya Kəpəz, ya da ki, Qoşqar olmasan,
Səni sırasına qatmaz, ay ustad!

Sən qaya sipərli bir şair, ozan,
Kölgənə sığınar yolundan azan!
Çeşmə tək qayalar köksündən sızan
Ümman tək tükənməz, bitməz, ay ustad!

Gözəllik şairin halalca malı.
Özündən şirindir dərdi-məlalı.
"Yaxşılıq" dediyin balıq timsalı –
Dəryaya buraxsan, itməz. ay ustad!

Ömrün baharında, fəslin qışında,
Həmişə qalibsən hər yarışında.
"Bir eşqin şimşəyi" çaxsa başında
Tufanı bir örmür yatmaz, ay ustad!

Bizi kim anarsa, duz-çörək ilə,
Anmışıq həmişə düz ürək ilə.
İlyas ovlayanı bir sürək ilə.
Bəhlul min sürəklə tapmaz, ay ustad!

Yeni Əliismayıl, köhnə Alnavat,
Öz şair oğluyla abaddır, abad!
Qoy tanrı eyləsin işini avand,
Kimsənin köməyi yetməz, ay ustad!

Yaxşı tanıyırsan çay Ataxalı,
Yolu bir az çətin, bir az aralı.
Hələ tikilməmiş körpüsü qalır...
Gözümdən bir an da getməz, ay ustad!

İşıq şairisən, nur şairisən,
Sən eşqin, ilhamın gur şairisən.
Bu qoca dağların pir şairisən,
Bir kimsə İlyasa çatmaz, ay ustad!

***Bəhlul Ataxallı***

## İlyas Tapdığın

Şair pərvazlanar doğma elində,
Hər çiçək gözəldir öz güllüyündə.
Söz mumtək əriyər şair dilində -
Hopub təravəti baxçanın, bağın,
Şeirinə-sözünə İlyas Tapdığın.

Batırıb hər sözü bala, yazıbdır,
Bürüyüb qumaşa, şala, yazıbdır.
Yapıb qala üstən qala, yazıbdır –
Yonubdur hər sözün tinin, bucağın,
Bərq vurur kəlamı İlyas Tapdığın.





Bağlayar ünsiyyət hər adi kəslə,
Səsləyər dostları ahəstə səslə.
Oxuyar şeirini hamı həvəslə -
Verməyib hədərə ömrün bir çağın,
Qızıldır hər anı İlyas Tapdığın.

Onun könlü-gözü dağda, meşədə,
Tutub qərarını çətin peşədə.
Hələ deyilməmiş sözü şişədə -
Pöhrələr bürüyüb qolun-budağın,
Yetmiş beş baharlı İiyas Tapdığın.

Ömür pay-pay olar, hamıya çatmaz,
Hamı pay istəyər, əl paya çatmaz.
Pay da paydan umar, pay, paya çatmaz
Əsrin dörddə üçü şair, dayağın,
Bir payı hələ var İlyas Tapdığın.

Şair doğma yurda, elə bağlıdı,
Şairin ömürü xoş növrağlıdı.
Şair mərd doğulub, o mərd oğludu
Odur yetirməsi ana torpağın,
Gədəbəy vətənli İlyas Tapdığın.

Güvənib əqlinə, işə, əməyə,
Kimsəni çağırmaz gəlsin köməyə.
Haqqın var Fəxrəddin, belə deməyə -
Zirvəsi qar olar vüqarlı dağın,
Bəyaz saçları tək İlyas Tapdığın.

***Fəxrəddin Meydanlı***

## Xəbər ver
*(Bir parça)*

Ayrım Cavad dilimizin əzbəri.
Meydandan qaçmayıb, dönməyib geri.
Misgin Vəli aşıqların sərvəri.
Xoş xəyallı mehribandan xəbər ver.

İlyas Tapdıq Gədəbəyin ülkəri,
Şair cərgəsində vardı öz yeri.
Yazdığı şeirlər dillər əzbəri,
Qəlbitəmiz bu insandan xəbər ver.

Aşıq İsfəndiyar, sən də yaz-yarat,
Səni də yetirib böyük bir ustad.
Saz əlində məclislərdə olma mat,
Ara-axtar, hər bir yandan xəbər ver.

## Nədi
*Dostum İlyas Tapdığa*

İlyas Tapdıq, a gözümün işığı,
Ana yurdumuzda bu tufan nədi?
Göylərə yüksəlir amanlar, ahlar,
Vədəsiz köç edən bu karvan nədi?

Kaman nalə çəkər, könlüm qan ağlar,
Nə yaman ağırdı bu an, bu çağlar,
Ana - “bala” deyib daşı qucaqlar,
Qəfil qırğın üçün bu fərman nədi?

Məni başa salın, kimdi günahkar,
Günahsız qırğına kimdi səbəbkar?
Nə üçün gizlənir, olunmur aşkar,
Aşkarlıq var isə bu pünhan nədi?





Çoxmillətli olub biz yaşamışıq,
Zəhmətə, əməyə bir başlamışıq.
Düşməni yurdumdan bir daşlamışıq?
Xalqıma deyilən bu böhtan nədi?

Aşıq İsfəndiyar batıbdı yasa,
Şəhər bürünübdü qara libasa,
Əgər haqq-ədalət, həqiqət varsa,
Şəhidlərdən sonra bu zindan nədi ?

***Aşıq İsfəndiyar Rüstəmov***

## Gəlmişəm

İlyas demiş, yön çevirib şəhərdən
Dağlar, sənə baş əyməyə gəlmişəm.
Şücaət tək torpağını, daşını,
Həm öpməyə, həm öyməyə gəlmişəm.

Tər dabandan süzülüncə gəzməyə,
Güllərini məlhəm üçün üzməyə,
Qismət olsa bircə qoşma düzməyə,
Oylağına mən dəyməyə gəlmişəm.

Mən Əliyəm, bəhri-eşqə cumandan,
Gen dolandım imansızdan, yalandan,
İzin versən, zirvədəki dumandan,
Bir yaxasız don geyməyə gəlmişəm.

***Aşıq Əli Quliyev***

## İlyas Tapdığın 75 illiyinə

Yetmiş beş illiyində xatirə danışır İlyas Tapdıq
Ayaqlarına bax,
Birin götürür, birin qoyur
Elə bil ki, sözlərinə
Vergül qoyur,
Nöqtə qoyur.
Baxın: iri hərflərlə yazılmış "GÖZLƏMƏK" sözüdü
ayaqlar
- tap
- dıq
- yaz
- dıq
- çat
- dıq.

Bir ayağını götürəndə "yox",
Bir ayağını qoyanda "hə".

Əlinə bax iri kəlbətin kimi
Demək istəmədiyi sözün ağzını yumur.
Mənimsə meylim deyilməyən sözədir.
Üstündən xətt çəkilmiş cümlələrdə gizlənir.

Fikir verin, danışanda bir çiyni əyilir.
Əyilir ki, xatirəni qaldırsın.
Bir çiyni də yuxarı qalxır.
Qalxır ki:
Lazım deyil, qoy qalsın.

Bir gözünü yumur…
Odeyy, getdi xatirənin dalınca.
Bir gözünü açır.
Demək xatirə yoxdu artıq,
Cəmiyyət var salonda.





O günü "Sahil" bağında yarpaqlarla bir gedirdi İlyas
Tapdıq
Əllinci illərin əvvəliydi İlyas Tapdıq
Əli Kərimin Əlləriydi İlyas Tapdıq
Uşaqların dilləriydi İlyas Tapdıq.
Buna bax eeee…
Özü də deyirlər şair oxunmur.

***Qəşəm Nəcəfzadə***

## Yetmiş beşin mübarək

*Sevimli şairimiz İlyas Tapdığa*

Bir eşqin şimşəyi çaxdı başında
Bu dağlardan aldın dözümü, şair.
İlhamın çay kimi coşdu, kükrədi,
Bulaqlar durultdu sözünü şair.

El-el, oba-oba dolaşdı adın,
"Nəvələr, gəvələr" bizə tanışdı.
Gözəllər "Gözlər"də gözəlləşdilər,
Sevənlər sevginlə yandı, alışdı.

Sevgin tükənməyib, sevgin bitməyib
Qəlbin yurd eşqiylə hələ yanırsa,
Deməli, bu ömrün boşa getməyib
"Dağlarda çoban da səni anırsa."

Arxanda durubsa dağlar dağ kimi
Gedib o dağlara baş əyməlisən.
Şeirin ətir saçır güllü bağ kimi,
Bir şair ömrüylə öyünməlisən.

Şair qardaş, yütmiş beşin mübarək!
Qarşıdadır doxsan beşin, yüzün də.
Haqq-ədalət açılacaq çiçək tək,
İşıq gördüm o nurani üzündə.

***Gəray Göyyurd***

## Gədəbəydədi

*Şair İlyas Tapdığa*

İlhamın ailəsi sən demə, Tapdıq,
Həvəsin yaxşısı Gədəbəydədi.
Bu dağlar sənindi qəm yemə, Tapdıq,
İlyasın yaxşısı Gədəbəydədi.

Çən oldun dağlarda yaza söykənən,
Bulaqsan bir yanı buza söykənən.
Təbə dirsəklənən, saza söykənən,
Cinasın yaxşısı Gədəbəydədi.

Şair görkəmindi göyə baş vuran,
Nəğməni ürəyə qoşan, qoşduran.
İliyə işləyən, qanı coşduran,
Nəfəsin yaxşısı Gədəbəydədi.

Seçilmir qayalar, işıldayır Ay,
Çiskin bir alaydı, duman bir alay.
Hər sinə üstündə saz çəkir haray,
Mirasın yaxşısı Gədəbəydədi.

Torpağı, daşı var uludan ulu,
Bəlkə də burdandı nicatın yolu.
Gör nə möcüzədir, ay Cəlaloğlu,
Hər xasın yaxşısı Gədəbəydədi.

***Elbəyi Cəlaloğlu***





## Ay İlyas qağa

*(Şair dostum İlyas Tapdığın 75 illik yubileyi münasibətilə)*

Səninlə hər zaman fəxr edirik biz,
Bizə şöhrət-şansan, ay İlyas qağa!
Dillər əzbəridir şeirləriniz,
Sən xoşbəxt insansan, ay İlyas qağa!

Əlinə qələmi alandan bəri,
Kağıza tökülüb alnının təri.
Həyatda baş verən incəlikləri,
Düşünüb duyansan, ay İlyas qağa!

Gəzib dolanırsan öz aləmində,
Qovrulub-bişibsən söz aləmində.
Adın yaşayacaq saz aləmində
Sənətə uyansan, ay İlyas qağa!

Bu dağların sərvətindən halısan,
Çiçəkdən süzülmüş beçə balısan.
Bizim şairlərin ağsaqqalısan.
Dosta mehribansan, ay İlyas qağa!

Mən Dağlaroğluyam, ucadır başım,
Yubileyin mübarək, əziz qardaşım.
Demə yetmiş beşə çatıbdır yaşım,
Sən hələ cavansan, ay İlyas qağa!
Sən hələ cavansan, ay İlyas qağa!

***Piriverdi Dağlaroğlu***

* * *

Dağın, düzün doğmasısan,
Təbiətin loğmanısan,
Hələ eldən doymamısan -
Dostum İlyas.

Uşaqlara uşaq oldun,
Saz götürdün, aşıq oldun,
Gözəlliyə aşiq oldun -
Dostum İlyas.

Şairlərə əl yetirdin,
İlhamınla bar gətirdin,
İsgəndəri sən yetirdin -
Dostum İlyas.

Uşaqlardan ilham aldın,
Uşaqlarçün qələm çaldın.
"Böyümədin", uşaq qaldın -
Dostum İlyas.

Şeirimizin öz dağısan,
Xainlərə göz dağısan,
Sənət dağı, söz dağısan,
Yüzü ötsün bu yetmişin -
Dostum İlyas.

***İsgəndər Etibar***



## Sərv ağacım

*Gümüşdən don gey,*
*Köç bir nağıla,*
*Yaşıl sərvim!*
*Nurlu-nurlu yağışlarla*
*daran,*
*Ulduz-ulduz baxışlarla*
*bəzən,*
*Ay ucalığından şeir*
*söylə...*

***İlyas Tapdıq***

Sanki fıkrə dalıb, çatılıb qaşı,
Bir həmdəm axtarır könül sirdaşı.
Yüksəlir göylərə ucalan başı,
Keçir buludları Sərv ağacının.
Paxıllar olubdur ona daş atan,
Sonra kölgəsində yıxılıb yatan.
Sevgidi, ülfətdi onu yaşadan,
Olsa da qubarı Sərv ağacının.
Ustadım veribdi mənə bu adı,
Bu adla tanıdım qohumu, yadı.
Uçar ona doğru arzu qanadım,
Sərvidir ürəyi Sərv ağacının.

***Südabə Sərvi***

## Yagmur olsam, Azərbaycana yağsam

*İlyas Tapdığa*

Yağmur olsam, Azərbaycana yağsam,
Sənsə yolda yürüyor əllərin islansa
Bilirmisin yağmurun göz yaşım olduğunu?!
Yanar dağ patlasa, lavlar püskürsə,
Yerlərə saçılsa, hər yer yansa
Bilirmisin o yangının mənim ürəyimdə olduğunu

Küçük şehrin şairiyim mən,
Fazla bir şey gəlmir əlimdən.
Çox uzaqlardasın, bitanəm,
Bilirmisin səni nasıl sevdiyimi?!

## Yaz gəlincə

Yaz gelince yaşıl yaprak açarsın,
Küz* gəlincə yerlere döker qaçarsın.
Bir derdim vardı, bir daha açarsın,
Yetmezmi aşkın öldürdü beni.

Gökteki yıldızlar akıp gidiyor,
Hasretin beni yakıp gidiyor,
Bir ateş düşürdün kalbime,
Bu ateş beni yakıp gidiyor.

***

Mümkünmü seni görmek,
Nasip olurmu sevmək.
Saçım elimle örmek
Sen hurimisin, yoksa melek.
Selvi uzun boylu,
Tatlı dilli, güzel huylu.
Nazik hassas soylu,
Gel beraber gidek seninle.

***Mələk Sayım***





## Xalq şairi İlyas Tapdığa

Ülvi salamlarla, ay İlyas Tapdıq,
Görüşə səsləyir bu dağlar səni.
Vədə çatdı, el qayıtdı qışlağa,
Arayır kimsəsiz yaylaqlar səni.

Baldırğanlar, quzqulaqlar quruyub,
Zirvələri çiskin, duman bürüyüb,
Comaların bel kərəni çürüyüb,
Xatırlar gəzdiyin oylaqlar səni.

Qalmayıb qarağat, moruq, çiyələk
Arxaclarda ağarışır göbələk,
Nağıltək xatırlar o küskün mələk,
Bir də o cığırlar, çaylaqlar səni.

Bıçaqla ağaca yazdığın o ad,
Çoxdan sənsizləşib, qoparır fəryad,
Səsləyir o sevgi, o ləzzət, o dad,
Yelləncək qurduğun budaqlar səni.

Yurd yeriniz çoxdan uçub-tökülüb,
Pərdiləri zaman kimi sökülüb,
O qız da qocalıb, beli bükülüb,
Öpüşə səsləyir bulaqlar səni.

Kərəməm, yetişdi ömrün payızı,
Başa qırov salıb qışın ayazı,
Pozulub üstünə yazdığın yazı,
Axtarır həmən o yarpaqlar səni.

***Kərəm Vəlioğlu***

## Xanlıqlardadır

*İstedadlı şair İlyas qağanın ünlü bir şeirinə nəzirə*

*"Soruşdun, hardanam Hüseyn Xaloğlu,*
*Ömrümün binası - Gədəbəydədir.*
*Ananun boynuma dolanan qolu,*
*Yuxumun laylası -Gədəbəydədir.*

***İlyas Tapdıq***

Şairlər yurdundan gəlir sorağım.
Varlığımın özü - Xanlıqlardadır!
Qəlbimin sözüdür qələm-varağım,
Qazağımın gözü - Xanlıqlardadır!

Bu eldə yaşayıb həmişə babam,
Bu eldə kök salmış həmişə babam.
Bu eldə gur yanır çırağım, qadam,
Ocağımın közü - Xanlıqlardadır!

Müqəddəs ehramdır o Baba dərviş,
Ocağa sitayiş etmişəm vərdiş,
Kənddə doğulmuşam neyləyim, dərdiş,
Çəhlimimin izi - Xanlıqlardadır!

Tacıbəy, Didəvan ən ulu qalam,
Uca zirvələrdə ömürlük qalan,
Dağlar diyarına yetirin salam,
Zirvələrin yüzü - Xanlıqlardadır!

Çoxdan ad çıxarıb Dilboz atları,
Kölgədə qoyubdur bir çox adları,
Heyrətə salıblar doğma-yadları,
Cıdırımın düzü - Xanlıqlardadır!





Bu yaşda karvanım üzü sazağa,
Enək Gədəbəydən bizim Qazağa,
Bircə kəlmə deyim, ay İlyas qağa,
Ocağımın közü - Xanlıqlardadır!

***Zaməddin Ziyadoğlu***

## Dağlar yada salar

*Daha kimd iyada salan* **şairi...**
*İlyas Tapdıq*

Min nəğmə bəsləyən coşqun dağ çayı
Çağlar, yada salar şairi, qardaş.
Kol dibinin bənövşəsi, nərgizi
Ağlar, yada salar şairi, qardaş.

Dolayları qarış-qarış gəzmisən,
Yaşıl otu o üz-bu üz əzmisən.
Zirvələri tək aşmısan azmı sən?
Bağlar yada salar şairi, qardaş.

Dağ yerinin şaxtasında donmusan,
Gah palıda, gah çinara qonmusan.
İlk sevginin alovunda yanmısan,
Dağlar yada salar şairi, qardaş.

Ağac kölgəsində, bulaq başında
Böyüklər, kiçiklər sənin yaşında,
Bu diyarın torpağı da, daşı da
Saxlar, yada salar şairi, qardaş.

Müzahim fikirdə, xəyallar göydə,
Zaman nə haydadı, insan nə hayda?!
İgidlər məskəni o Gədəbəydə
Dağlar yada salar şairi, qardaş.

***Müzahim İsmayılzadə***

* * *

*2005-ci ilin iyul ayının 28-də xalqımızın ziyalı oğlu, Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Kamran Rzayev şair İlyas Tapdığıı 71 illiyi münasibətilə Gədəbəydə böyiik bir şeiir məclisi təşkil etmişdi.*

İki min beşinci il ortası yayın,
Dağların döşündə gül yığın-yığın,
Böyük el şairi İlyas Tapdığın,
Yetmiş bir yaşında dayandı zaman,
Bir şeir məclisi qurmuşdu Kamran.

Qocadağ Şahdağa sarı baxırdı,
Sanki baxışından şimşək çaxırdı,
Mahnı süzülürdü, şeir axırdı
Gözəl Gədəbəyin bulaqlarından,
Bir şeir məclisi qurmuşdu Kamran.

Hər qəlbdə neçə min arzu yanırdı,
Hamı bir-birini qardaş sanırdı,
Dağlar bu birlikdən vüqarlanırdı,
İnsanlar can deyib eşidirdi can,
Bir şeir məclisi qurmuşdu Kamran.

Güllər bir-birinə eyləyirdi naz,
Elə bil təzəcə açılmışdı yaz.
Aşıq İsfəndiyar sinəsində saz,
Meydan sulayırdı, eləyirdi qan,
Bir şeir məclisi qurmuşdu Kamran.

Vətən torpağının xoş təbiəti,
Məftun eyləmişdi Cavad Heyəti.
Dindikcə dilində el məhəbbəti,
Sevinclə gülürdü Təbriz, Savalan,
Bir şeir məclisi qurmuşdu Kamran.





Şairlər yurdunun qoca, cavanı,
Hörmətlə dinlədi Oqtay Rzanı,
Andıqca qürbətə dönən Şuşanı,
Şuşa dağlarından qalxırdı duman,
Bir şeir məclisi qurmuşdu Kamran.

Musa Ələkbərli dağ vüqarıyla,
Dosta sədaqəti, etibarıyla,
Açmışdı qəlbini min bir barıyla.
Sanki püskürürdü oyanmış vulkan,
Bir şeir məclisi qurmuşdu Kamran.

Dəmir Gədəbəyli dağlar övladı,
Qaynar bulaqlar tək coşdu, çağladı,
Yamaclar, cığırlar, izlər ağladı,
İlyas qağamız da kövrəldi yaman,
Bir şeir məclisi qurmuşdu Kamran.

Dinlədikcə Nahid Hacızadəni,
Dağlar öz başından dağıtdı çəni,
Oğuz mərdlərinin şanlı vətəni,
Sənətkar sözünə olmuşdu heyran,
Bir şeir məclisi qurmuşdu Kamran.

Tanrı töhfəsiydi o məclis, o tam,
Bir əlində sazı, bir əlində cam.
Mənim alim dostum tarixçi İlham,
Nəğməkar bülbülə dönmüşdü inan,
Bir şeir məclisi qurmuşdu Kamran.

Fəsillər dolanıb keçsə də illər,
Açılsa da güllər, axsa da sellər.
Gəlsə də dünyaya neçə nəsillər,
Məzahir o günü unutmaz bir an,
Bir şeir məclisi qurmuşdu Kamran.

***Məzahir Aliyev***

## Bil

Şeir-sənət mülkündə sən,
Yaxşı oxu, bu adı bil:
Səməd Vurğun yadigarı,
İlyas Tapdıq ustadı bil.

Gümüşüdü - saçın qarı,
Qızılıdı şeir varı,
Köməksizin mədədkarı,
Hər vaxt meyli dostadı bil.

Səyyad, deyil yolu çaşqın.
Ömrü təzə zirvə aşsın!
Özü sakit, təbi daşqın,
Hər sözündə astadı bil!

## Balasıyam

Ünvanımı soruşursan,
Uca dağlar balasıyam.
Gədəbəydə doğulmuşam,
Bulaqların aynasıyam.
Yağılardan qisas alan,
O dağlarda məğrur qalan,
Qartal üstə qanad salan,
İsgəndərin qalasıyam.

Sözlərimdə yoxdu qələt,
Xoş dillərdən aldım xələt –
Yanıramsa mən də əlbət,
“Yanıq Kərəm” nəvəsiyəm.





Çənlibelin gülü yazdı,
At üstəyəm, at murazdı.
Sinəm üstə telli sazdı,
Onu zildə çalasıyam.

Səyyad mənim öz adımdı,
Elim qolum, qanadımdı.
İlyas Tapdıq ustadımdı,
“Baş Sarıtel” havasıyam.

## İlyas Tapdığın

Gəlişi bizləri nura bürüdü,
Xalqı üçün yananların biridi.
Şeirinin mənalı sətirləridi
Hər söhbəti-sözü İlyas Tapdığm.

Dilsizə dil verib gətirib dilə,
Şirin avazını tanıdıb elə.
Böyük bir şərəflə qovuşub ilə,
Gecəsi, gündüzü İlyas Tapdığın.

Söz-sənət yolunda yanan çıraqdı,
Qohuma arxadı, dosta dayaqdı.
Qüdrətdən od alan bir gur ocaqdı,
Tükənməzdir közü İlyas Tapdığın.

Səyyad, qul olasan bir təmiz ada,
Gözəl sənətkara, kamil ustada.
İstər atlı olsun, istər piyada,
Silinməzdir izi İlyas Tapdığın.

## Ay ustad

Zaman məni elə hala salıb ki,
Əyriyə də düz deyirəm, ay ustad.
Bir alçağa bilə-bilə baş əyib,
Astara da üz deyirəm, ay ustad.

Hər gün çevirirəm haqqa üzümü,
Tanrı da rüşvətsiz demir sözünü.
Elə itirmişəm özüm-özümü,
Əlliyə də yüz deyirəm, ay ustad.

Sazı ələ salıb, qırdılar simi,
Bütöv varlığımın laxladı himi.
Ağlını itirmiş sərxoşlar kimi
Çaşıb qaşa göz deyirəm, ay ustad.

Qalmayıb başımda nə ağıl, nə huş,
Baharı bəd gəlmiş ilimdən soruş.
Bütün yeri-göyü bürüyüb bayquş,
Səyyad yanır, döz deyirəm, ay ustad

## Yerindədir

Qağa, soruşursan dağlarda nə var,
Hələ tərpənməyib tar yerindədir.
Bərədə ovçular, zirvədə qartal
Elə əvvəlki tək var, yerindədir.

Tutub gədikləri qışın ordusu,
Bərk hücumdadı, yoxdu qorxusu.
Qəti hiss olunmur yazın qoxusu,
Keçən ildən yağan qar yerindədir.





Baxdım tanımadım düzü dağları,
Sır-sıra bağlamış buz bulaqları.
Dərman üçün çox axtardım bağları,
Güclü xəzan vurub, xar yerindədir.

Keçmişimdən çox danışdı babalar,
Səyyad yenə tarixləri varaqlar.
Buzdan dirsəklənib qədim qalalar,
Sinəmdən asılan qor yerindədir.

## Gədəbəydədir

*Hörmətli şairimiz İlyas Tapdığın*
*“Gədəbəydədir” şeirini oxuyarkən*

Dağlar qucağında ulduzlar təki,
Sayrışan tər güllər Gədəbəydədir.
Uca zirvələrin qaya köksündən.
Asılan dağ tüllər Gədəbəydədir.

Yamaca, yaylağa yaxşı nəzər sal,
Şığıyıb qıy vurur səmada qartal.
Uçub qanadlanır göylərə xəyal,
Sazımın zilləri Gədəbəydədir.

Baxdım heyran-heyran gur şəlaləyə,
Körpə bənövşəyə, zərif laləyə,
Əzəldən məftunam bu gözəlliyə,
Süsənlər-sünbüllər Gədəbəydədir.

Şimşəklər oynadı, işıq çiləndi,
Dərə uğuldadı, dağ silkələndi.
Bir göz qırpımında yağış ələndi,
Atlanan gur sellər Gədəbəydədir.

Təbiət çağırır, Səyyad, gəl deyir,
Bu doğma yerlərdə bir dincəl deyir.
Nabələd yolçuya qonaq qal deyir,
“Can” deyən xoş dillər Gədəbəydədir.

***Səyyad Məmmədli***

## Borçalıdadı

Elimdə bayramdı, - Odlar yurdunun,
Bir qələm ustası Borçalıdadı.
Birinci gəlişi olsa da onun,
Çoxdankı sədası Borçalıdadı.

Hər anı gözəldir belə bir çağın;
Könlümdə çağlayır söz yığın-yığın,
Ellər sevimlisi İlyas T apdığın
Şeiriyyət dünyası Borçalıdadı.

Ellər sevimlisi İlyasTapdığın
Şair, unudulmaz qədri bır anın,
Bizləri həmişə axtarıb, anın.
Ömrümün mənası Azərbaycanın,
Qəlbinin parçası Borçalıdadı.

Şirin xəyalında xoş gələcəyin,
Qayəsi saf olan arzu, diləyin.
Yarıya bölünmüş bütöv ürəyin,
Təbrizin nəvası Borçalıdadı.

Sazla gülümsəyən, sazla ağlayan,
Ömrünü tellərə düzüb bağlayan,
Hüseynin, Əmrahın ürək dağlayan,
Yadigar havası Borçalıdadı.





Sizi kövrəltməsin mənim sözlərim,
Qələmim cavandı, deyildir dərin.
Sayı çox olaydı belə günlərin,
Bir ümid şüası Borçalıdadı.

Müqəddəs yol qoyub bizə babalar,
Namus, qeyrət candan əziz tutular.
Dostluğa sədaqət, dosta etibar.
Saflığın mayası Borçalıdadı.

Siz, ey gözəl insan, bəxtiyar ata,
Çox xoş gəlmisiniz bizim elata.
Nənə-babaların bu toy-büsata,
Min xeyir-duası Borçalıdadı.

Belə qohumluğa afərin, əhsən,
Səadət diləyir ellər ürəkdən.
Sümüyü Gədəbəy, südü Balakən,
Bakılı balası Borçalıdadı.

***Ziyadxan Sərdar***

## Necədir

İlyas Tapdıq, o dağların qoynunda,
Söylə, günün-güzəranın necədir?
Ahıl çağı bəd gəlibdir taleyin,
Tərsə dönən tərs dövranın necədir?

Dağlara gəlmisən, dağ həvəslisən,
Baharı sevirsən, yaz nəfəslisən.
Bülbül timsalısan, daş qəfəslisən,
Gülü solmuş Gülüstanın necədir?

Gözləmə dağların sən ilk qarını,
İntizarda qoyma nazlı yarını.
Aparma Bakıya Muncuq qarını,
Bilirsənmi o cananın necədir?

Sənətin sirrini öyrəndik səndən,
Başın açılmayır dumandan, çəndən.
Ay ustad, sən Allah; incimə məndən,
Üyüdürmü, dəyirmanın necədir?

Sən dağlar oğlusan, dağ vüqarlısan.
Dosta sədaqətli, etibarlısan.
Miskinli oğluna düz ilqarlısan,
Payız keçdi, zimistanın necədir?

***İsrayıl Miskinli***

## Ay qağa

*Mən doğma kədimdə ev tikmək xəyalına düşmüşdüm. İsrayıl Miskinlidən belə bir məktub aldım.*

İlyas Tapdıq, nə həvəsdi düşmüsən,
Qocalanda ev tikməzlər, ay qağa.
Cavanlığı orda-burda keçirib,
Qocalanda ev tikməzlər, ay qağa.

Mənalı günləri vermə küləyə,
Daha ceyranların gəlmir sürəyə.
Etibar eyləmə zalım fələyə,
Qocalanda ev tikməzlər, ay qağa.

İsrayıl söyləyər,vallah, hədərdi,
De, gülər üzündə bu nə kədərdi?!
Yaş ötüb, bilmirəm hər nə qədərdi,
Qocalanda ev tikməzlər, ay qağa.





***

İlyas Tapdıq, nə zamandı
Gözlərimiz yolda qalıb.
Küməlgəni sel aparıb,
Muncuq qarı çöldə qalıb.

Şöhrətin var el-obada,
Nə tapmısan boş yuvada.
Uduzmazsan bu sevdada,
Söz-söhbətin eldə qalıb.

Sən qoymazsan bizi darda,
Sınanmısan etibarda.
Qartalların qayalarda,
Sonaların göldə qalıb.

Dar ayaqda məğrur, mətin,
Dağ oğlusan - var qeyrətin.
Ürək açan şeiriyyətin
Dastan olub dildə qalıb.

Miskin oğlu, bil hər zaman,
Zirvələrə çökür duman.
Hay-harayla coşan ümman,
İlk baharda seldə qalıb.

***İsrayıl Miskinli***

## Bathabatda

*Ustad şairimiz, əziz dostum,*
*xalqımızın sevimlisi İlyas Tapdığa*

Dilləndir sazını, ay İlyas Tapdıq,
Günəş qürubunda bathabatdadı.
Mərdin ocağını sazaq söndürər,
Namərdin ocağı çathaçatdadı.

Baxıram dağlara nakam, gileyli,
Ümmana dönübdü didəmin seli.
İtirdik vətəni, obanı, eli,
Bəxtimin naxışı yathayatdadır.

Qəsdimə durubdur nazlı bir sənəm,
Aman da vermir ki, tərpənəm, dinəm,
Əzəldən dərd-qəmlə elə sərsəməm,
Şeytan aramızı qathaqatdadır.

Bu çərxi-fələk də verməyir aman,
Üstümə kükrəyir qərəzli zaman.
İndi qolu bağlı miskin bir qulam,
Şubayı ucuzca sathasatdadı.

***Şubay Qəmgin***





## Bu da bir xoş məqamdır

*İlyas Tapdığın "Kamrandı, Kamran"*
*şeirini oxuyandan sonra yazdım*

Bu yerlərin havası xoş, suyu xoş.
Şair burdan qayıdarmı əli boş.
İlyas Tapdıq, bu büsatdan şeir qoş.
Gədəbəyim indi cənnət məkandır,
Sözə könül vermək üçün məqamdır.

Yol başlayıb zaman təzə əsrinə,
Yeni söz qoy şeir, sənət qəsrinə.
Sözlərimi şair, yozma tərsinə,
Söz azaddır - bu biz deyən zamandır,
Sözə könül vermək üçün məqamdır.

Mən Salehəm, hər sözünə müştağam,
Şeir-sənət yollarında uşağam...
Dost yolunda şölə saçan çırağam,
Od aldığım qəhrəmanın Kamrandır.
Təşəkkürə bu da bir xoş məqamdır.

***Saleh Mövsümov***

## İlyas Tapdıq, Qurbanını kəsəcəm

Kəndə gəlib qayıdanda xəbərsiz,
İlyas Tapdıq, inciyəcəm, küsəcəm.
Layla çalan analara şərikik
Üstlərində yarpaq kimi əsəcəm.

Sazı sevib, sözü seçib bizim el,
Kim dindirsə telli sazda "Sarıtel'.
İlyas Tapdıq, sözlərini onu bil,
Gözlər üçün yazdığından seçəcəm.

Ocaq dağı bizim eldə sınaqdı,
İnam - qəlbə, dağ da dağa dayaqdı.
İlyas Tapdıq, qurbanım var nə vaxtdır,
Yetmişində qoç qurbanı kəsəcəm!

***Cəmil Hüseynli***

*Komsomolun Mərkəzi Komitəsinin*
*Mükafutına layiq görülmüş şair*
*dostum İlyas Tapdığa*

"Dəmir
o dəmir.
Dəmir
od əmir"
Dəmirə bənzəyir

Bu odlu misralar.
İstəyin və arzun
Əbədi bir bahar.
Mənə çox doğmadır
Mehriban nəfəsin.
Alovlu, nəğməli
Öz yolun, öz səsin.
Qoy, sənə dost kimi
Mən açım qəlbimi.
Səninlə qoy bölüm,
Arzumu, qəmimi.
Bilirik, qardaşım,
Əzəldən biz bunu;





Belədir dünyada
Həyatın qanunu:
Ərisin, əyilsin
Qoy, dəmir də deyə.
Dəmiri atırlar
Odlu bir kürəyə,
Dəmirçi dəmirlə,
Döşənir iistünə.
Əyilən, əzilən
Dəmirdir, ona nə.
Dəmir də kurədə -
alovda və odda Kədərlə əriyir,
O dəmir vüqarı Bir anda əyilir.
Mən haqqın yolunda
Şam kimi yanıram.
Düzlüyü həyatda
Bir amal sanıram.
Bu amal yaşadır,
Məni bu dünyada.
Gah mənə acıdır,
Gah şirin dünya da.
Mən haqqın yolunda
Dəmir tək əridim.
Mən haqqı, düzlüyü
Həyatda görmədim.
Dayılı, arxalı cocuqlar,
Həyatda yüksəldi
çox yerə
Alovlu qəlbimin sevinci,
Arzusu çevrildi kədərə.
Süründü ardımca
hər zaman,
Bu xain, bu xoflu
ürəklər.
Mən rahat olmadım
bircə an,

Nə gecə, nə gündüz,
nə səhər!
Olmasın dünyada

deyirəm
Bu xain, bu xoflu
ürəklər
Dillərdə ucalsın

hər zaman
Sevimili və şirin
nəğmələr
Deyirəm əbədi bahara dönəydi
qoy bütün
Yer üzü.
Bax, budur
Alovlu qəlbimin
Arzusu,
İstəyi
və sözü

***Mirzəli Cəfər***





## Köməkçi göstəricilər

## İlyas Tapdığın əsərlərinin əlifba göstəricisi

A dağlar ..... 26, 290
A gül, niyə vaxtsız soldun ..... 20, 24
A Rüstəm dayı ..... 20, 24
A Toplan ..... 7, 12, 15, 23
Abı-şirin ..... 17
Abşerona yaşıl meşə yaraşır ..... 14, 17, 77, 161
Abuzər kişinin yaşıl dərəsi ..... 264
Abuzər, Abdulla, bir də İsrayıl ..... 26
Adım mənim ..... 279
Adımı qaytar mənə ..... 20, 24
“Adından ad alan” ..... 24
Ağ şanı, qara şanı ..... 6, 7, 8, 12, 15, 17, 23, 24, 93, 155, 293
Ağa gərək ..... 20, 24
Ağacayaqlar ..... 19, 23
Ağaclar quruyur yol qırağında ..... 17, 26, 252
Ağamusa Axundov ..... 24
Ağarmaq istəyirdi ..... 18, 23, 259
Ağılla iş tutanda ..... 20, 24
Ağır yeriyər, ağır oturar ..... 6, 24
Ağır... Yüngül ..... 8, 24, 125
“Ağrısı böyükdür...” ..... 17
Ağsu ..... 94
Ah tənbəllik, tənbəllik!... ..... 288
Axır dəmir səbətlər ..... 6, 8, 12, 24
Aktyor dostum ..... 17, 26
Aktyor ömrü ..... 17, 26, 253
Alagöz ..... 5, 24, 60
“Alanda dünyanı qatı çən-duman” ..... 26

Aldanmaram ..... 10, 20, 24
“Alışdım söz üstə” ..... 20, 24
Allah, bizdən əsirgəmə dözümü ..... 26
Alma ..... 245
Alovla yoğrulan” ..... 8, 17
Altıbarmaq bayatılar ..... 20, 24
Ana arzulu misralar ..... 383
Ana laylası ..... 18, 23
Ana məhəbbəti, haqq sədaqəti ..... 377
Ana və qız ..... 83
Analar, ay analar!.. ..... 19, 23
Anaların ulduzları ..... 18, 23
Anam ..... 8, 14, 24, 162
Anama ..... 26
Anamur ..... 26
And içəndə ..... 20, 24, 277
Ara qatan, haraya çatan ..... 17, 26
Aranla dağ arasında ..... 6, 17, 20, 24, 111
Aravuran ..... 14, 17, 192
Aravuran-arıvuran ..... 18, 23
Araz dərdini dağıdır ..... 20, 24
Araz nağılı ..... 264
Arxalı dağlar ..... 5, 24, 68
Arxayınam ..... 17, 26
Arı beçə verəndə ..... 23
Arı və Camal ..... 7, 12, 15, 23, 124
“Arı” deyirmiş ..... 9, 12, 15, 18, 23, 145
Arıq Məmməd ..... 20, 24
Arılar-ayılar ..... 18, 23
Arıların səsi ..... 6, 8, 12, 24
Arının evi ..... 15, 18, 23
Armud ..... 11, 12, 15, 18, 23
Arzun, əməlin ..... 17, 26
Arzunun gülü ..... 9, 12, 15, 23
Aşıq ..... 9, 12, 15, 18, 23, 140





Aşıq ömrü ..... 314
Aşıqların sazları ..... 26, 290
At ayağını ..... 26
Ata hörməti ..... 14, 26, 193
Ata laylası ..... 18, 23
Ata sən qocalırsan ..... 15, 173, 177
Ata və qız ..... 69
Ata yurduna yol çəkəcəyəm ..... 26
Ata, gəl gəzək ..... 7, 12, 15, 23
Ata, sən qocalırsan ..... 12, 23, 182
Atalı yetim ..... 6, 14, 24
Atamın son məktubu ..... 2, 8, 12, 20, 24, 33, 34
Ataya hörməti mən sizdə gördüm ..... 26
Avtandilin nağılı ..... 26
Avtoqraf ..... 26
Ay Aslanoğlu ..... 26
Ay batdı, ayı yatdı ..... 9, 12, 15, 23, 141
Ay çəyirtkə, çəyirtkə! ..... 18, 23
Ay daş atan bəxtəvər ..... 17, 26
Ay əmi – Söhrab ..... 26
Ay əmi ..... 288
Ay Ətəkqulu ..... 17, 26, 224
“Ay Gülçöhrə” ..... 16
Ay insafsız məhəbbət ..... 20, 24
Ay körpə ürəklərin... ..... 204
Ay qız ..... 20, 24
Ay mənim gənclik məhəbbətim ..... 17, 26
“Ay mənim paxılım..” ..... 20, 24
Ay Musa ..... 26
Ay niyə qaçır? ..... 7, 12, 15, 23, 108
“Ay Sənəm” ..... 16
Ay səni, dəcəl pişik! ..... 15, 18, 23, 209
Ay Şahid ..... 26
Aybənizin dişi ..... 7, 12, 15, 23, 95
Aygüllə Günay ..... 23

Ayı kim sındırıb? ..... 11, 12, 15, 23, 152
Ayıq ol ki ..... 14, 26
Ayla bəzənən adlar ..... 19, 23
Aynanın hörükləri ..... 70
Aynurə ..... 18, 23
Ayrı düşmərəm ..... 47
"Ayrılardıq" ..... 6
"Ayrıldıq" ..... 24
Ayrılıqdır ..... 20
Ay – topudur dəcəlin ..... 9
"Az deyil..." ..... 6, 20, 24
Azərbaycan ..... 16
1 apreldə ..... 23
Baba və balaca Mehriban ..... 12, 15, 23, 169, 182
"Babam belə deyirdi" silsiləsindən ..... 24
Babaya kömək ..... 16, 18, 23
Bacım Hümayəyə ..... 3, 8, 46, 180
Badam ..... 18, 23
Bağbanın dərsi ..... 19, 23
Bağça gülləri ..... 15, 18, 23, 218
Bağçaya çıx ..... 7, 12, 15, 23
Bağın bağ olsun təzə dil tapaq ..... 246
Bağışla ..... 26
Bağışla a naçannik!.. ..... 6, 17, 24
Bahar kimi doğulduq ..... 16
Bahar lövhələri ..... 6, 8, 12, 17, 24, 75
Bahar ömrün nəğmələri ..... 335
Bahar ömürlü şair ..... 364
Bahar ünvanlı ..... 273
Bahar yolu ..... 14, 26
Bahar yurduma bağlarla gəldi ..... 23
Bahar yurduma baharla gəldi ..... 15, 18, 181, 182
Bahardan əziz ..... 20, 24
Baharla gəlsin ..... 17, 26
Baharla yarış ..... 17, 26, 236





Baxa bilmədim ..... 20
Baxa-baxa ..... 17, 26, 294
Baxdıqca bax! ..... 18, 23
Bakı ..... 7, 12, 14, 15, 16, 17, 23, 26, 77, 291, 293
Bakı gecəsi ..... 8
Bakı küləyi ..... 10, 17, 24, 151
Bakı, gəzdikcə səni... ..... 76
Bakımızın meri Hacıbala müəllimə ..... 26
Bakının gecəsi ..... 2, 17, 24, 27, 35, 296
Bakı-Şamaxı yolu Sabir xiyabanıdır ..... 286
Bakı-Şamaxı yolu Sabir prospektidir ..... 26
Bal axtardı ..... 12, 15, 23, 173, 182
"Bal" oğlan ..... 20, 26
Balaca Artur ..... 15
Balaca aşıq ..... 19, 23
Balaca baramaçı ..... 9, 12, 15, 23
Balaca buzov ..... 18, 23
Balaca Dilbər ..... 19, 23, 270
Balaca qur-qur ..... 18, 23
Balaca Nahid ..... 23
Balaca ovçular ..... 7, 12, 15, 23, 56
Balaca sağıcı ..... 9, 12, 15, 23, 136
Balaca Tural ..... 18, 23
Balakəndə ..... 6, 8, 17, 24, 98
Balakəndə sübh çağı ..... 14, 17, 187
Balasını qurd aparmış ..... 18, 23
Barlı payız ..... 17, 26, 232
Baş əyməyə gəlmişəm ..... 256
Baş tərpədir ..... 20, 24
Başa düşdüm! ..... 18, 23
Başıdaz-iclasbaz ..... 6, 17, 24
Batabat yaylağı ..... 12
Batabat yaylağında ..... 17, 24
Bayatılı şeir ..... 20, 24
Bayram axşamında ..... 18, 23

Bayram günü ..... 51
Bayram şənliyində ..... 26
Bayram töhfələri ..... 336
Bayram töhfəsi ..... 52
Bayramlıya aşıq gəlib ..... 19, 23
Belə dost varsa ..... 17, 26
Beləmi düşünürsən ..... 20, 24
"Bethoven oğlu" ..... 303
Bədniyyətin nitqi ..... 142
Bəxtəvərdir ..... 17, 26
Bəkir ..... 26
Bənövşələndi ..... 26
Bənzər ..... 26
Bəsti ..... 26
Bəzəmələr ..... 10, 24
Bəzən yalançı dost ..... 20, 24
Bəzi bufetçilərə ..... 106
Bilal ..... 26
Bildirçin ..... 9, 12, 15, 18, 23, 150, 182, 245, 312
Bilə bilmirəm ..... 20
Bilirsənmi, ay Sənəm? ..... 7, 12, 15, 23, 84
Bilmədi ..... 24, 219
Bilmədim ..... 8, 24
Bilməz ..... 17, 26
Bilmirəm ..... 3, 24
Bilmirik ..... 26, 290
Bir alim yatır ..... 6, 14, 24
Bir de gördüm ..... 17
Bir də bax ..... 20, 24, 266
Bir də gördüm ..... 26
Bir də gördüm payız kəsib qapımı ..... 260
Bir dünya ..... 109
Bir eşqin şimşəyi ..... 6, 17, 24
Bir evim var ..... 11, 12, 15, 18, 23, 153, 182
Bir gözəlsən ..... 17, 26





Bir gülün qönçəsi ..... 10, 17, 24, 26
Bir gün belə, beş gün belə ..... 17, 222
Bir günəşdir ..... 17, 26
Bir günəşdir qanunum ..... 14, 194
"Bir işdən ötrü on yol" ..... 24
Bir işdən ötrü" ..... 6, 17
Bir meşə bir zərif nəğmə itirdi ..... 20, 24
Bir otaq ..... 6, 8, 14, 20, 24, 109
"Bir ömrün yolunda..." ..... 20, 24
Bir sevginin meyvəsi ..... 205
"Bir söhbətdə ha çalışdım dinməyim" ..... 10, 24
Bir şəhiddir ürəyim ..... 26, 280
Bir usta ki, el-obada adı var ..... 26
Bir uşaq var... ..... 19, 23
Bir ürək eşqimi ..... 8, 24
Bircə bunu biləydim ..... 26
Bircə qədəm qalıb ..... 6, 24, 78, 110
"Bircə qəfil səsdən...." ..... 20, 24
Birnəfəsə yazılan şeir ..... 20
"Biz ayrıldıq" ..... 24
Biz sənə Könül dedik ..... 23
"Biz yanaşı dayanıb" ..... 24
Bizi də təbrik edir ..... 19, 23
Bizim söhbətimiz ..... 20
Boğazdan yuxarı ..... 10, 24
Bolqar dostuma ..... 2
Bolqar dostuma məktub ..... 24
Boş yuva ..... 16, 18, 23
Boşqab yuyuldu ..... 19, 23
Boyat elinin nəvəsi ..... 23
Boy həsrəti ..... 113
Boz papaq ..... 15, 18, 23, 182, 186
Boz yumaq əhvalatı ..... 16, 18, 23
Bölmədim ..... 20
Böyük Atatürkün işıqlı yolu ..... 26

Böyük dərd ..... 17, 26
Böyük şairə ..... 2, 24, 38
Böyürtkən ..... 18, 23
Bu alçadır, a kalça! ..... 18, 23
Bu bir bayramdır ..... 23
Bu bir həyat dərsiydi ..... 26
Bu da bir növ adamdır ..... 20, 26
Bu dünya ..... 20, 26
Bu görüş ..... 17, 26
Bu gün də ..... 2, 20, 24, 47
Bu gün mayın biridir ..... 19, 23
Bu günün qiyməti ..... 20, 24
Bu hava ələ düşməz ..... 17, 26
Bu sarı çəpiş ..... 18, 23, 312
Bu sevgi ..... 20, 24, 267
Bu şeiri sənə yazdım ..... 2, 20, 24
Bu şeirimi qansa ..... 14, 26
Bugünkü həyatımız – sabahkı tariximizdir ..... 329
Bulaq başında ..... 2, 3, 8, 17, 24
Bulaq gördüm ..... 96
Bulaq üstə ..... 39
Bulaqlar ..... 6, 8, 12, 17, 23, 24, 312
“Bulud dağlarının...” ..... 10
Bura İsmayıllıdır ..... 26
Burnuyla görür ..... 17, 26
Buruqlar ..... 10, 17, 24, 154
Bülbül ..... 16, 18, 23
Bülbül kimi ..... 276
Canalı-gavalı ..... 18, 23
“Canlı ensiklopediya” deyirdik ona ..... 26
Cavan ağac ..... 6, 8, 24, 111
Cəmcəməli ..... 10, 24
Cəmil Əhmədli ..... 26
Cəmil od əkdi ..... 19, 23
Cənnətdə qalmaq olar ..... 20, 24





Cığal Bilal ..... 7, 12, 15, 23, 85
Cırmaq ..... 10, 24, 146
Cırnağan ..... 7, 12, 15, 18, 23
Cökəli bulağı ..... 19, 23
Cücə cücəni döydü ..... 18, 23, 312
Cücə və saat ..... 242
Cüyür ..... 6, 7, 8, 11, 12, 15, 18, 23, 24, 144
Cüyürmüş ..... 15, 18, 23, 190
Çalağan yem gəzirdi ..... 19, 23, 268
Çapıqlar ..... 20, 24, 264
Çaş tülkü ..... 17, 26
Çayın da bir anlıq qırılar beli ..... 17, 26, 236
Çaytikanı ..... 18, 23
Çevik adamlar ..... 20, 26
Çəkdilər ..... 26, 279
Çəməndə ..... 6, 24
Çənəm yorulur ..... 17, 26
Çənəm yorulanda… ..... 254
Çəpiş ..... 16, 18, 23, 238
Çərşənbə axşamı, Novruz bayramı ..... 26
Çiçəklərim ..... 15, 16
Çiçəklərim, güllərim ..... 15
“Çiçəyin üstünə ayaq basanlar” ..... 6, 24
Çıxar ..... 20, 24
Çıxartdıq qoz ləpəsi ..... 18, 23
Çıq-çıq ..... 16, 92
Çil toyuğun cücəsi ..... 19, 23, 265
Çimnaz oynayır ..... 7, 12, 15, 23, 177
Çin ..... 3, 24, 28
Çinar..... 2, 3, 40
Çinarın laylası ..... 18, 23
Çinarın nəğməsi ..... 18, 23
Çinarla qoşa ..... 368
Çinarlı Göyçay ..... 5, 12, 17, 24, 72
Çingizin Emin oğlu ..... 19, 23

Çırağa dönmüş ömür ..... 26, 282
Çiyələk ..... 23, 291
Çıxar ..... 276
Çobanam ..... 8, 24
Çox da sonulama...” ..... 3, 17, 24
Çox doğru söyləsən ..... 20, 24
Çox şükür ..... 280
Çoxalıbdı ..... 17, 26
Çoxdur dünyada gözlər ..... 8
Çoxu çox söz deyər ..... 26
Çovğun olanda ..... 20, 24
“Dağ çapanın...” ..... 6, 8, 24
“Dağ gücü, ildırım sürəti” ..... 24
“Dağ gücü...” ..... 6
Dağ şəhəri ..... 6, 8, 12, 17, 24, 26, 96, 248
Dağ yolu ..... 8, 12, 14, 17, 24, 26, 121, 126
Dağ yollarında düşüncələr ..... 264
Dağa köçmədi ..... 18, 23
Dağa-daşa salır ömür-gün bizi” ..... 6, 8, 24
Dağdağan-sağsağan ..... 18, 23
Dağın qüdrəti ..... 2, 48
Dağın ürəyi var ..... 14, 17, 26, 195
Dağlar ..... 26, 288, 289
Dağlar bəstəkarı ..... 48
Dağlar çapılır ..... 6, 8, 12, 24, 96
“Dağlar övladıyam, dağ həvəsində” ..... 10, 24
Dağlar, sənə baş əyməyə gəlmişəm ..... 20, 24
Dağlar təmkinlidir ..... 20, 24
Dağlar yorulsun ..... 14, 26, 17, 178
Dağları ..... 19, 20, 24
Dağların ..... 20, 24, 313
Dana ..... 18, 23
Danışmağa haqqı yox ..... 26, 288
“Daraq çək sığal ver...” ..... 3, 24
Darı kimi biçməsən ..... 290





Darıxma ..... 26
Daş atan uşaq ..... 15, 23, 225
Daş yollar ..... 6, 8, 12, 24, 96
Daşkənd ..... 14, 17
Daşkəsən lövhələri ..... 6, 24, 96
“Dayandırdı yolda məni bir nəfər” ..... 6, 24
“Dayandırdı” ..... 17
Dayça qaçır ..... 19, 23
Dayı hardasan? ..... 3, 24
Demək olmaz ..... 14, 17, 26
Deməsəm, olar? ..... 18, 23, 255
“Deyirdin...” ..... 20, 24
Deyirəm ..... 8, 14, 17, 20, 26
“Deyirəm, artıq sənin haqqında” ..... 24
Deyirlər ..... 2, 3, 24, 48
“Deyirsən...” ..... 6, 14, 17, 20, 24, 26
Dəcəl pişik ..... 16
Dəmir ..... 143
Dəmir ağacı ..... 9, 12, 15, 18, 23, 150, 182
Dəmir körpü ..... 26
Dəmir od əmir ..... 9, 12, 15, 23, 182
Dəmirçi ..... 291
Dəniz lövhəsi ..... 3, 12, 24
Dəniz mərhəmətilə ..... 17, 26
Dəniz... Sahil... ..... 8, 24
Dənizim ..... 130
Dərdə əyilmə ..... 20, 24
Dərdi ..... 26
Dərman cökə ..... 19, 23, 265
Dərman yox ..... 290
Dəyər deyilənlərə ..... 61
Dəyirman ..... 26
Dəyirman baba ..... 19, 23
Dəyirman dayanıb ..... 18, 23
Dilican ..... 14, 17, 26, 187

Dindar xəstə ..... 10, 24
Divan ..... 261
Doğma institut ..... 3, 24
Doğma kəndə bağlı hekayələr ..... 348
Doğmalıq ..... 20, 24, 278
"Doğulub dünyaya gəldiyi gündə" ..... 10
"Dolama yollarla dağa çatanda" ..... 10, 14, 26
Dondurma ..... 23, 283
Dost borcu ..... 365
Dosta yananda ..... 305
Dostların ..... 20, 24
Dostluğun gücü ..... 9, 12, 15, 23, 143
Dostluq şarjları ..... 122
Dostum Mir Əzizin ad günündə ..... 26
Dostumun oğlu Qədim ..... 15, 23, 173, 182
Dönük sevgi ..... 20, 24
Dönür ..... 6, 12, 17, 24, 86, 111
Dörd yoldaş ..... 291
Dördlüklər ..... 17, 26, 252
Döstluğun gücü ..... 312
Döşünə döyənlər ..... 6, 17, 24
"Döyünməyi ürəyə de" ..... 14
"Dözüm"ün ilk oxucusu mən idim ..... 369
Durnanın gözü kimi ..... 14, 17, 26, 87
"Duru çeşmə - durna gözü" ..... 26
"Duru çeşmə"... ..... 17
Duyğular seli ..... 8
Duyğuların gur seli ..... 5, 20, 24
Duzu yoxdur ..... 20, 24
Dünən burda..." ..... 8, 12, 14, 24
Dünya ..... 17, 26
"Dünya boş qalmazdı" ..... 24
Dünya gülzar oldu ..... 17, 20, 24, 248
"Dünya yaman dayazlaşıb" ..... 26
Dünyada çoxdur ..... 6





Dünyada çoxdur gözlər ..... 17, 24
Düşdü ..... 17
Düşərgədən məktub ..... 15, 23, 182
Düşün taleyini quru söyüdün ..... 246
Düşünək dünyanın taleyini biz ..... 20, 24
Ekizlər yatdı ..... 103
Ekranda güzgülənir ..... 17, 26
El bayramı ..... 2, 3, 24, 48, 123, 131
El bir olsa ..... 20, 24
El dərdi ..... 280
El mahnıları ..... 20, 23, 24, 274, 275
Elçin Aslanov ..... 24
Elçin ayaq açır ..... 7, 12, 15, 23, 79
Elegiya ..... 17, 26
Elə cavankən qocaldım ..... 26, 280
Elə-beləcə... ..... 17, 26, 236
Elin gözünə bax ..... 20, 24
Elin iman övladı ..... 26
Elin sevincini, kədərini yaz..." ..... 5, 20, 24
Ellada ..... 18, 23
Ellər oğlu ..... 17, 26
Elnaranın evi ..... 16, 18, 23
"Eşitdik..." ..... 8, 24
"Eşşək palçığa bir dəfə batar" ..... 19, 23
